RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 115 (8431) CÜMƏ AXŞAMI, 18 iyun 2020-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



# Azərbaycan sənaye inqilabı üzrə regional mərkəzə çevrilir

**Azərbaycanla sıx əməkdaşlıq edən dünya şöhrətli şirkətlərdən biri də “Microsoft”dur. Əvvəllər şirkət rəhbərliyinin Prezident İlham Əliyevlə, eləcə də hər iki tərəfin mütəxəssislərinin bir-biri ilə görüş və söhbətləri də olub. Bu dəfəki görüş isə dünyada yaranmış pandemiya vəziyyəti ilə əlaqədar videokonfrans şəklində keçirilib.**



## Prezident İlham ƏLİYEV: “Bizim əsas strategiyamız karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır”

Prezident İlham Əliyev və “Microsoft”un vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və digər nümayəndələri arasında keçirilən videokonfrans sözügedən şirkətin təşəbbüsü ilə təşkil olunub. Tədbirdə toxunulan mövzulardan birincisi, təbii ki, koronavirus pandemiyası ilə mübarizə məsələsi olub. Filip Roq ölkəmizdə bu istiqamətdə aparılan çoxşaxəli işi yüksək dəyərləndirib.

Prezident İlham Əliyev buna görə təşəkkürünü bildirərək deyib: “Baxmayaraq, əlbəttə ki, bu pandemiya bizim ənənəvi həyat tərzimizə ciddi şəkildə müdaxilə edir, bununla belə biz özümüzü reallığa uyğunlaşdırmalıyıq. Bizim pandemiyanın öhdəsindən gəlməklə bağlı səylərimiz barədə sözlərinizə görə sizə təşəkkür edirəm. Həqiqətən də, Azərbaycan bu mühüm məsələnin həllində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə adlandırılıb. Vəziyyət nəzarət altındadır. Eyni zamanda biz nəinki təkcə daxili məsələlərə diqqət yetiririk, həmçinin qlobal miqyasda da fəaliyyət göstəririk. Azərbaycan artıq 29 ölkəyə humanitar yardım göstərib və bu proses davam edir. Biz özümüzü beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi nümayiş etdiririk”.

Daha sonra qeyd edilib ki, ölkəmizin bu il üçün böyük perspektivləri var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin beş ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın - təxminən 1,7 faiz azalmanın olduğunu göstərir. Bununla belə iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb. Bu səbəbdən də məhdudiyyət tədbirləri uzlaşdırılır, çünki COVID-19 hələ mövcuddur. İqtisadiyyatın və sosial həyatın müxtəlif sahələrinin fəaliyyətinin bərpa edilməsinə başlanıb.

Xatırladaq ki, ölkəmiz “Microsoft”la bir çox sahələrdə, o cümlədən açıq açar infrastrukturu ilə mübarizə, kibertəhlükəsizlik, informasiya texnologiyalarının təhsildə tətbiqi və internet əşyalar texnologiyası və kadrların təlimi kimi sahələrdə sıx əməkdaşlıq edir. Şirkətin Azərbaycanda nümayəndəliyi də uğurla fəaliyyət göstərir.

*Ardı 7-ci səh.*

# Dünya Bankı ilə əməkdaşlığın səviyyəsi məmnunluq doğurur

**Dünya Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri arasında videokonfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, videokonfrans iştirakçılarını salamlayan **Prezident İlham Əliyev** dedi:

- Sizi görmək çox xoşdur.

**Anna Byerde:** Təşəkkür edirik. Qarşılıqlıdır. Günortanız xeyir.

**Prezident İlham Əliyev:** Günortanız xeyir. Sizin sabahınız xeyir. Sizdə səhərdir.

**Anna Byerde:** Bəli.

**Prezident İlham Əliyev:** Şadam ki, gələcək planlarımız barədə danışmaq və ola bilsin ki, artıq görülmüş işlərə nəzər salmaq üçün imkanımız var.

*Ardı 2-ci səh.*

# İlham ƏLİYEV: “Tibb işçilərimiz ən böyük hörmətə layiqdirlər”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 17 İyun - Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə rəsmi “Facebook” səhifəsində paylaşım edib.

Paylaşımda “Yorulmadan, fədakarlıqla insanların sağlamlığı üçün mübarizə aparan tibb işçilərimizə ən böyük hörmətə layiqdirlər. Azərbaycan həkimlərinə eşq olsun!” sözləri yer alıb.

# Mehriban ƏLİYEVA: “Biz sizin fədakarlığınızın, səxavətinizin və qəhrəmanlığınızın şahidi olduq”

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü ilə bağlı paylaşım edib.**



Paylaşımda deyilir: “Bu gün - 17 iyun ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü qeyd olunur. Səhiyyə sahəsində çalışan hər kəsi bu əlamətdar gün münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Əminəm ki, bu gün bütün vətəndaşlarımız sizə sonsuz təşəkkür və səmimi minnətdarlığını bildirmək istərdi. Axı, koronavirus pandemiyası ilə mübarizədə əsas yük sizin üzərinizə düşüb. Biz bir daha sizin peşəkarlığınıza əmin olduq. Biz sizin fədakarlığınızın, səxavətinizin və qəhrəmanlığınızın şahidi olduq. Siz öz doğma və yaxınlarınızdan uzaqda həyatınızı riskə ataraq xəstəliyi yenməyə kömək edir, həyatları xilas edir, insanlara inam və ümid bəxş edirsiniz. Sizin gündəlik zəhmətiniz, peşə borcunuza sadiqliyiniz, pasiyentlərə xoş münasibətiniz, şəfqət və mərhəmətiniz ən yüksək qiymətə layiqdir! Sizin hər birinizə hünər, dözüm və ən əsası, cansağlığı arzulayıram!”

# Azərbaycan-Avropa İttifaqı əlaqələri hər iki tərəf üçün çox vacibdir

**İyunun 17-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Prezident İlham Əliyev və prezident Şarl Mişel iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçiriləcək sammiti ilə bağlı fikir mübadiləsi aparıblar.

Söhbət zamanı Avropa İttifaqı-Azərbaycan əlaqələrinin hər iki tərəf üçün çox vacib olduğu bildirilib, Azərbaycanla Avropa İttifaqı arasında Tərəfdaşlıq Sazişi üzərində işin getdiyi qeyd olunub.

Telefon söhbəti zamanı enerji təhlükəsizliyi məsələsinə toxunularaq “Cənub qaz dəhlizi” layihəsinin bu işə töhfə verəcəyi vurğulanıb.

Dövlət başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini bir daha ifadə edərək bildirib ki, Ermənistan rəhbərliyinin daim danışıqlar formatını dəyişdirmək cəhdləri, Dağlıq Qarabağın Ermənistana aid olması ilə bağlı bəyanatlar verməsi münaqişənin həllinə əngəl törətməklə bərabər, danışıqlar prosesinə də böyük zərbə vurur. Prezident İlham Əliyev bir daha bildirib ki, münaqişənin həlli yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.

Prezident İlham Əliyev və Şarl Mişel regional təhlükəsizlik məsələləri ilə də bağlı fikir mübadiləsi aparıblar.

Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub.

Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Avropa İttifaqı-Azərbaycan əlaqələrinin hər iki tərəfin maraqlarına uyğun olaraq bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

**Bir neçə il bundan əvvəl çəkilmiş rahat Cəlilabad-Yardımlı şose yolu ilə üzü qərbə doğru taxılbiçənlərlə görüşə gedirik. Yolun hər iki tərəfində yetişmiş taxıl zəmiləri görünür.**



# Bol məhsullu zəmilər

## Cəlilabadda taxıl biçini sürət götürür

Arpa əkilmiş sahələrin məhsulu biçilib götürülmüşdür. Bir neçə gündür ki, buğda biçininə start verilmişdir. Hər tərəfdə qızğın iş gedir.

Yol yoldaşım Cəlilabad Rayon İcra Hakimiyyətinin məsul işçisi İlqar Mirzəyev idarə etdiyi maşının sükanını buraxmadan gözləri ilə işarə edib deyir ki, görürsünüz, mülkiyyətçi bu gün işinə necə məsuliyyətlə yanaşır, onun səmərəli olmasına çalışır. Taxılını biçdiyi sahənin küləşini pres bağlayır, sonra dərhal şum aparır. Bununla da o, həm mal-qarası üçün qışa yem tədarük edir, həm Allah eləməmiş, yanğın baş verərsə, alovun bir sahədən digərinə keçməsinin qarşısını alır, həm də yay şumu etmiş olur. Yay şumu isə növbəti il üçün bol məhsul deməkdir. Torpaq kifayət qədər günəş enerjisi toplayır, tərkibindəki ziyanvericilər, alaq otları da məhv olub gedir.

Dağların döşündə, məhsulu biçilmiş yerlərdə dördbucaq şəklində görünən, lakin hələ də yaşıllığını müəyyən qədər saxlayan sahələr diqqətimizi çəkdiyindən onların nə olduğu ilə maraqlanırıq. İ.Mirzəyev deyir ki, bunlar noxud, mərci, lərgə əkilmiş sahələrdir. Bunu eşidərkən sovetlər birliyi zamanında Cəlilabadda işləyən raykom katiblərindən birinin dediyi bu sözlər yadıma düşür: “Cəlilabad torpağından digər yerlərdə, Muğan zonasında gübrə kimi istifadə etmək olar”. Bu, sözün əsl mənasında belədir. Odur ki, burada bir çox bitkilər yetişir.

Müstəqillik əldə edildikdən, torpaqlar şəxsi mülkiyyətə verildikdən sonra kənd adamları, ayrı-ayrı sahibkarlar bu münbit, bərəkətli torpağın imkanlarından daha geniş və səmərəli şəkildə istifadə etməyə başladılar. Kartof, çiyələk əkinləri genişləndirildi. İndi burada yetişdirilən nübar və faraş məhsullar daxili bazarlarla yanaşı, Rusiya Federasiyasının müxtəlif şəhərlərinə də göndərilir.

*Ardı 5-ci səh.*

# Ermənistanda növbəti diktatura formalaşıb

## Paşinyan hakimiyyətini möhkəmləndirmək üçün siyasi təqibləri artırıb

Ermənistanda ictimai-siyasi müstəvidə vəziyyət yenidən pisləşməyə başlayıb. Xatırladaq ki, bu günlərdə Ermənistan parlamentindəki çoxluq “Çiçəklənən Ermənistan” Partiyasının sədri və eyniadlı fraksiyanın lideri Qaqik Tsarukyanın təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsinə razılıq verib və faktiki olaraq onu deputat toxunulmazlığından məhrum edib.

Səsvermədə yalnız “Mənim addımım” hökumətyönümlü blokun üzvləri iştirak ediblər. Belə ki, iki müxalif fraksiya səsvermədə iştirak etməkdən imtina edib və baş verənləri məzhəkə adlandırıb. Tsarukyanın özü isə həmin vaxt Milli Təhlükəsizlik Xidmətində dindirilib.

Artıq Tsarukyanın həbsinə hazırlıq gedir. Bu fonda “Çiçəklənən Ermənistan” Partiyasının parlamentdəki “Tsarukyan” fraksiyasının üzvü olan deputatlar qanunverici orqanın iyunun 17-dəki iclasını boykot edərək zaldan çıxıblar. Müxalif deputatlar Tsarukyanın qeyri-qanuni şəkildə deputat toxunulmazlığından məhrum edilməsinə etiraz olaraq bu addımı atıblar. Fraksiyanın deputatı Arman Abovyan deyib: “Təəssüf edirəm ki, demokratik dəyərlərin bərpası üçün söz və fikir azadlığı şüarları ilə toplananlar siyasi opponentlərin ağzını yummağa çalışırlar”.

Tsarukyanın adı üç cinayət işində hallanır. Birincisi, Tsarukyanın qumar biznesi sahəsindəki şirkətlərinin qanunsuz fəaliyyəti nəticəsində dövlət büdcəsi 60 milyon dollara yaxın vəsait itirib.

*Ardı 7-ci səh.*

# Dünya Bankı ilə əməkdaşlığın səviyyəsi məmnunluq doğurur

*Əvvəli 2-ci səh.*

Biz Dünya Bankı ilə əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Azərbaycana və sizin maliyyə dəstəyinizlə həyata keçirdiyimiz mühüm layihələrə göstərdiyi davamlı dəstəyə görə Dünya Bankına çox minnətdarıq. TANAP-a göstərdiyiniz dəstəyə görə xüsusi təşəkkürlər. Yəqin ki, bildiyiniz kimi, "Cənub qaz dəhlizi" layihəsinin icrası sona yaxınlaşır. Ümidvarıq ki, bütün tikinti işlərini bir neçə aya tamamlayacağıq. Əlbəttə ki, Dünya Bankının "Cənub qaz dəhlizi"nin ən mühüm hissələrindən olan TANAP-ın icrasına verdiyi töhfə yüksək qiymətləndirilir. Sözsüz ki, bu, digər bankların da bu mühüm layihəni dəstəkləməsi üçün yaxşı siqnal oldu.

Mən, həmçinin artıq icra edilmiş layihələri nəzərdən keçirirdim. Onlar bir çox sahələri əhatə edir. Biz çox mühüm töhfəyə görə olduqca minnətdarıq, ümumilikdə layihələrə 3,5 milyard dollardan çox vəsait ayrılıb. Əlbəttə, bizim gələcək üçün daha çox planımız, ölkənin müasirləşdirilməsi, iqtisadiyyatımızın qeyri-enerji sektorunun inkişaf etdirilməsi və sözsüz ki, infrastruktura investisiya yatırılmasının davam etdirilməsi ilə bağlı planlarımız var. Beləliklə, mən əminəm ki, gələcəkdə çox müsbət əməkdaşlığımız olacaq.

Mən, həmçinin özünüməşğulluq proqramı ilə bağlı bizə dəstək göstərilməsinə dair müraciətimə dərhal cavab verdiyinə görə Dünya Bankına xüsusi minnətdarlığımı bildirmək istərdim. Həmin müraciət 2019-cu ilin yanvarında təqdim olunmuşdu və bir ildən də az müddət ərzində biz artıq bütün hazırlıq işlərini tamamlamışıq. Mənə məlumat verilib ki, Dünya Bankının özünüməşğulluq layihəsində iştirakı təxminən 100 milyon ABŞ dolları həcmində olacaq. Buna görə təşəkkür edirik. Bu il biz bu proqramla 15 minə yaxın adamı əhatə etməyi planlaşdırırıq və əlbəttə ki, Dünya Bankı tərəfindən əlavə maliyyələşdirmə yüksək qiymətləndirilir və alqışlanır.

**Anna Byerde:** Təşəkkür edirəm, Zati-aliləri. İlk növbədə, bu görüşü təşkil etdiyinizə görə çox sağ olun. Mən Sizinlə görüşməkdən həqiqətən də məmnunam. Mən Sizinlə Azərbaycanda görüşməyi çox istərdim. Amma dünyada baş verənləri nəzərə alsaq, hələ ki görüşləri bu cür keçirməli olacağıq. Lakin çox yaxın gələcəkdə Sizinlə Azərbaycanda görüşəcəyimə ümid edirəm. Mən, həmçinin tərəfdaşlığa görə və birlikdə bir çox sahələrdə işlədiyimiz komandaya minnətdarlığımı bildirmək istərdim. Əlaqələrin necə möhkəm olduğunu görməkdən məmnunam. Tərəfdaş kimi Dünya Bankına olan etimadınıza görə Sizə çox təşəkkür edirəm. Mən bu vəzifənin icrasına başladığımdan bu yolu davam etdirməyimizi səbirsizliklə gözləyirəm. Bir daha buna görə təşəkkür edirəm.

Həmçinin mən Dünya Bankı adından Azərbaycanın Beynəlxalq İnkişaf Assosiasiyasına verdiyi töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Bu addım çox yüksək qiymətləndirilir. Sizin ən yoxsul ölkələr üçün olan fondumuzu dəstəkləməyiniz bizim tərəfimizdən həqiqətən də çox yüksək qiymətləndirilir. Düşünürəm ki, bu, bizim əlaqələrimizi daha irəliyə aparır. Buna görə həqiqətən də minnətdarlığımı bildirmək istərdim. Mənim üçün burada olmaq məmnuniyyətdir. Mən təxminən 5 illik fasilədən sonra regiona qayıdıram. Geri qayıtmaq möhtəşəmdir. Mən Dünya Bankındakı fəaliyyətimin əhəmiyyətli bir hissəsini bu regionda keçirmişəm. Bu, mənə çox yaxın olan regiondur. Ötən dəfə regionda olarkən təxminən 4 ay Azərbaycandakı proqrama birbaşa nəzarət etmək mənə nəsib olub. Bu müddət ərzində, həmçinin ölkə ilə tərəfdaşlıq çərçivəsi təsdiq olunub. Mən son bir neçə ildə bu tərəfdaşlıq çərçivəsinin həyata keçirilməsini görməkdən çox məmnun oldum. Mən TANAP layihəsinin ilkin mərhələlərində iştirak etmişəm, ona görə də ona yaxşı bələdəm. Mən bu layihə münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm. Bu, bizim buna bənzər nəyisə dəstəkləyə bilməyimiz və həm kredit əməliyyatlarını, həm də birgə apardığımız işimizi nə dərəcədə yaxşı mənimsədiyimizi göstərən həqiqətən də flaqman layihədir. Mən bir daha təşəkkürümü bildirmək istəyirəm. Birlikdə əldə etdiyimiz yaxşı irəliləyişi davam etdirməyi və onu daha yüksək səviyyələrə qaldırmağı səbirsizliklə gözləyirəm. Mən, həmçinin qeyd etməliyəm ki, Azərbaycanla bağlı məlumatları oxuyarkən ölkənin "Doing Business" hesabatında reytinqini görməkdən həqiqətən də məmnun olmuşam. Mən bu münasibətlə də Sizi təbrik etmək istəyirəm. Düşünürəm ki, bu, dəyişikliyin daha bir sübutudur. Siz qeyd etdiyiniz kimi, iqtisadiyyatınızın şaxələndirilməsi üçün "Doing Business"də iqtisadiyyatın inkişafı baxımından yaxşı göstəricidir.

Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti Anna Byerde bildirdi ki, koronavirusun təsirinin olduğu bir dövrdə yaşayırıq. O, ölkəmizdə icra olunan özünüməşğulluq layihəsinə toxundu, kənd təsərrüfatı sahəsində gələcək əməkdaşlıqdan danışdı.

Dünya Bankının ölkəmizdəki rəhbəri Navid Hassan Naqvi 4 il Azərbaycanda fəaliyyət göstərdiyini məmnunluqla qeyd etdi. Vurğuladı ki, fəaliyyətinin başa çatması ilə bağlı ölkəmizi zəngin təəssüratlarla tərk edir. O, dövlət başçısına Dünya Bankının ölkəmizdəki fəaliyyətinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm, Navid. Əlbəttə, təəssüf edirik ki, siz bizi tərk edirsiniz. Eyni zamanda, vaxtın necə sürətlə keçdiyini görürük. Çünki mən görüşdüyümüz ilk vaxtı - sizin Azərbaycanda yenicə fəaliyyətə başladığınız vaxtı xatırlayıram. Artıq 4 il keçib. Biz anlayırıq ki, Dünya Bankının əməkdaşları öz yaşayış və iş yerlərini çox tez-tez dəyişirlər. Lakin mən sizə "Çox sağ ol" demək istəyirəm. Çünki bizimlə olduğunuz bütün bu müddət ərzində siz həqiqətən də əməkdaşlığımıza və vacib layihələrin həyata keçirilməsinə töhfə verdiniz. Gələcək fəaliyyətinizdə sizə uğurlar arzu edirəm. Sizi yenidən Bakıda görəcəyimə ümid edirəm. Bizim qonağımız kimi və ya ola bilsin ki, yeni vəzifədə. Əməkdaşlıq üçün təşəkkür edirəm.

Sonra Dünya Bankının Azərbaycana yeni təyin olunan rəhbəri **Sara Maykl** çıxış edərək dedi:

- Salam, Zati-aliləri. Mən bu vəzifəyə təyin olunmaqdan həqiqətən şərəf hissi keçirirəm. Mən hökumətlə birgə çalışmağı, tərəfdaşlığımızı dərinləşdirməyə davam etməyi səbirsizliklə gözləyirəm. Mən əvvəllər Azərbaycanda və regionda çalışmışam. Bura artıq elə bir ölkədir ki, o, mənim ürəyimə yaxındır. Mən bu təcrübədən çıxış edərək irəliyə doğru addımlayacağımıza ümid edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Pandemiya bitən kimi biz sizi gözləyirik. Biz yenidən sizi qarşılamaqdan məmnun olardıq. Bizə yad olmamağınız düşünürəm ki, bizim üçün çox yaxşıdır. Siz bizim ölkə ilə tanışsınız. Bizim etdiklərimizin hamısını bilirsiniz. Çünki hazırda - iqtisadi islahatlarımızın bu mərhələsində sizin Azərbaycandakı fəaliyyətiniz bizə kömək edəcək ki, əməkdaşlığı müvafiq qaydada planlaşdıraq və artımı, məşğulluğu yaradan sahələrə diqqəti cəmləyək. Siz bizim şaxələndirmə, sənaye inkişafı ilə bağlı planlarımızdan məlumatlısınız. Ona görə də əminəm ki, siz Bakıda çox məşğul olacaqsınız.

Mən bir daha Dünya Bankının Azərbaycan üçün etdiyi bütün işlərə görə minnətdarlığımı bildirmək istərdim. Bizim "Doing Business" reytinqində irəliləyişlə bağlı xoş fikirləriniz üçün minnətdaram. Bilirsiniz ki, "Doing Business"dəki mövqeyimiz bizim üçün çox uğurlu sahələrə diqqəti cəmləmək üçün bir növ motivasiya idi. Ona görə də hökumətin, administrasiyamın və müvafiq nazirliklərin üzvlərindən ibarət xüsusi komissiya yaradıldı. Biz xüsusilə geridə qaldığımız sahələrə diqqət yetirirdik. Biz qısa müddət ərzində çox əsaslı irəliləyişə nail ola bildik. Əlbəttə, bu, ölkədəki biznes mühitini yaxşılaşdırır, daha çox investisiyalardan faydalanmağa imkan verir. Təbii ki, biz qeyri-enerji sektoruna investisiya yatırılmasında maraqlıyıq. Bizim üçün hazırda prioritet olan məsələlərə gəlincə mən ümumi şəkildə indiki pandemiya dövründə iki əsas prioritetin olduğunu deyərdim. Çünki biz ilə yaxşı iqtisadi artım göstəriciləri, yaxşı formada olan bütün iqtisadi parametrlərlə birlikdə çox ümidverici başlanğıc etdik. Lakin bu ilin 5 ayı göstərir ki, bizim iqtisadiyyatımız 1,7 faiz azalıb. Bu, çox deyil. Lakin bu, azalmadır. Amma ümidverici fakt ondan ibarətdir ki, bizdə kənd təsərrüfatında artım qeydə alınıb - 3 faizdən çox. Qeyri-enerji sənayesində artım 14 faiz təşkil edib. Ona görə də gələcək üçün bizim nəzərə aldığımız iki əsas məsələ şaxələndirməyə əsaslanan iqtisadiyyatın davamlı inkişafına nail olmaqdır. İkincisi isə, iqtisadiyyatın artımı daha çox iş yerləri ilə müşayiət olunmalıdır. Çünki Azərbaycan əhalisi artan ölkədir. Biz artıq 10 milyondan çoxuq. Əhali artır. Ona görə də xalqımız üçün daha çox iş yerlərinə ehtiyacımız var. Xüsusilə də indi bu yeni texnologiyalarla bir çox iş yerləri artıq bazarda deyil. Yeni işlər peyda olur. Lakin bu yeni iş yerləri üçün bizim insanların xüsusi bacarıqları olmalıdır. Ona görə də bu iki əsas amil bizim hər zaman gündəliyimizdədir. Birgə çalışdığımız digər layihələr arasında artıq proqramımızın mövcud olduğu özünüməşğulluq sahəsindən savayı, digər vacib sahələrdən biri kimi icbari tibbi sığortanın adını qeyd edərdim. Biz ölkə üzrə proqramı yanvardan başlamağı planlaşdırırdıq. Lakin koronavirus səbəbindən biz bunu gələn ilin yanvarına qədər təxirə salmalı olduq. Ancaq artıq proqramın əhatə etdiyi bir neçə şəhərimiz var. Nəticələrimiz yaxşıdır. Ona görə də il bitməzdən qabaq düşünürəm ki, sizinlə müvafiq qaydada bu sistemin necə strukturlaşdırılmasının üzərində işləməyə davam edəcəyik. Çünki bu, bizim üçün yenidir. Bir məsələ ondan ibarətdir ki, bu, 1, 2 və 3 şəhərdə tətbiq olunur. İkinci məsələ isə ondan ibarətdir ki, bütün ölkədə tətbiq olunacaq.

Ciddi şəkildə diqqəti cəmlədiyimiz sahələrdən biri də suvarma və su təchizatı ilə bağlı məsələlərdir. Mən gələcək su idarəetmə sistemlərimiz üçün yol xəritəsini yaratmaq məqsədilə Baş Nazirin müavininin rəhbərlik etdiyi xüsusi hökumət komissiyası yaratmışam, bir çox nazir bu komissiyanın üzvüdür. Çünki təəssüf ki, infrastrukturun çox hissəsinin istismar müddəti bitib. Bəzi ərazilərdə bizim 40, hətta 50 faiz su itkimiz olur, təsəvvür edin, su resurslarının çatışmadığı bir ölkədə. Xüsusilə ötən il bizdə ciddi quraqlıq oldu. Bu il də həmçinin. Bilirsiniz, sudan bu cür sui-istifadə qəbuledilməzdir. Ona görə də hökumət bunun üzərində çalışır. Biz ilk addımlarımızı 1 və ya 2 ay ərzində atmağı planlaşdırırıq. Ona görə də maliyyələşmə, nəzarət və məsləhətləşmə baxımından mən Dünya Bankını bizim tərəfdaşımız olmağa dəvət etmək istərdim. Çünki sizin bu sahədə çox böyük təcrübəniz var. Ona görə də bu sahənin gündəliyimizə daxil ediləcək məsələlər arasında adını çəkərdim.

Siz, həmçinin kənd təsərrüfatını qeyd etdiniz. Biz sizinlə bu sahədə çalışırıq. Biz kənd təsərrüfatının rəqabətqabiliyyətliliyini artırmalıyıq və necə irəliləməyimizlə bağlı anlayışımız olmalıdır. Çünki biz təkcə öz resurslarımızla ehtiyaclarımızı təchiz etməli deyilik, həm də daha çox ixrac potensialımız olmalıdır. Bunun üçün biz mövcud ixrac bazarlarına da daha çox cəlb olunmalıyıq və yeni bazarlar haqqında düşünməliyik. Bunlar hamısı sonuncu reabilitasiya mərhələsində olan nəqliyyat və logistik infrastrukturla bağlıdır. Dünya Bankı sayəsində biz bu sahədə çox vacib layihələr icra etmişik. Hazırda biz əsasən Şimal-Cənub nəqliyyat dəhlizi üzərində çalışırıq. Çünki Şərq-Qərb artıq həyata keçirilib. Paytaxt şəhərdən şimal və cənub sərhədlərinə qədər dəmir yolu şəbəkəmizin reabilitasiyası... Dəmir yolu mövcuddur, lakin yeni yük həcmlərinə görə bizim müasirləşməyə ehtiyacımız var. Beləliklə, bu layihə də bizim gündəmimizə daxildir.

Mən, həmçinin məhkəmə sistemimizə dəstəyinizə görə minnətdarlığımı bildirmək istərdim. Mən şəxsən yeni məhkəmə binalarımızın açılış mərasimində iştirak etmişəm. Təkcə binalar deyil, həmçinin sistemlər, texnologiyalar. Bütün bu layihələr Dünya Bankının dəstəyi ilə həyata keçirilmişdir. Pandemiya ilə əlaqədar vəziyyəti nəzərə alaraq təbii ki, postpandemiya dövrü böhranını idarə etmək üçün bizim ölkə strategiyasına ehtiyacımız var. Çünki bizim iqtisadiyyatımızın bəzi sahələri ciddi şəkildə zərər çəkdi. Xüsusilə də yaxşı nəticələrimiz olan və son 4 ildə artımın olduğu turizm sahəsi. Həqiqətən Azərbaycan turizm xəritəsində maraqlı istiqamətə çevrilib. Beləliklə, pandemiyadan sonra biz bu sektoru canlandırmaq və Azərbaycanı yenidən xarici turistlər üçün cəlbedici etmək istiqamətində çox çalışmalıyıq. Çünki turizm sərbəst konvertasiya olunan valyuta yaradan sektorlardan biridir. Qeyri-neft və qeyri-qaz ixracından gələcək daha çox sərbəst konvertasiya olunan valyuta ehtiyatlarına ehtiyacımız var. Ona görə də kənd təsərrüfatı, turizm, texnologiya düşünürəm ki, bizim diqqətimizi cəmlədiyimiz əsas sahələr olacaq.

Sonra Mərkəzi Bankın sədri **Elman Rüstəmov** çıxış edərək dedi:

- Təşəkkür edirəm cənab Prezident. Hörmətli xanım vitse-prezident, hörmətli həmkarlar. Mən Dünya Bankı və Azərbaycan arasında uzunmüddətli məhsuldar əməkdaşlığın tarixçəsini qeyd etmək istəyirəm. Bu əməkdaşlığa ötən 15-17 il ərzində təkan verilmişdir və bu müddətdə Azərbaycan iqtisadiyyatı 3 dəfə artmışdır. Yoxsulluq probleminin öhdəsindən gəlinmişdir.

Cənab Prezident, icazənizlə hansı növ antiböhran tədbirlərinin görülməsi ilə bağlı bir neçə söz demək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan bu böhranla əlaqədar çağırışlarla - xüsusilə əsas ixrac etdiyi məhsulların qiymətlərinin düşməsi ilə bağlı çağırışlarla üzləşmişdir. Lakin biz makroiqtisadi sabitliyi qoruya bilmişik, inflyasiyanın səviyyəsi təqribən 3 faizdir. Milli valyutanın kursu sabitdir və mübadilə kursu üzərində heç bir təzyiq yoxdur. Proqnozlara görə, bu ilin sonunadək çox cüzi bir resessiya olacaq. Lakin maliyyə sektorunda vəziyyət çox sabitdir və həmçinin bəzi qeyri-sabit bankların sistemdən çıxarılmasına nail olmuşuq. Həmçinin cənab Prezident, qorunan əmanətlərin sığortalanması üzrə qanunun müddəti artırılmışdır və maliyyə sektorunda sabitliyin qorunması üzrə bütün addımlar atılacaq.

Elman Rüstəmov Dünya Bankı ilə potensial əməkdaşlıq sahələrindən danışdı. Qeyd etdi ki, keçən il Dünya Bankı ilə yeni milli iqtisadi inkişaf strategiyasının hazırlanması üzrə danışıqlara başlanıb. Hazırda biz 2016-2020-ci illəri əhatə edən ölkə tərəfdaşlıq strategiyaları əsasında çalışırıq və bunun da müddəti cari vəziyyət nəzərə alınaraq bir il artırılmışdır. Mərkəzi Bankın sədri həmçinin maliyyə sektorunun qiymətləndirilməsi proqramı üzərində çalışmağın hər iki tərəf üçün faydalı olacağına əminliyini ifadə etdi.

Sonra Prezidentin köməkçisi **Natiq Əmirov** çıxış edərək dedi:

- Çox sağ olun, cənab Prezident. Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı COVID-19 qlobal pandemiyası ilə əlaqədar olaraq üçqat fiskal şoka məruz qalmışdır. Birincisi, qlobal ticarətin və artımın azalması nəticəsində neftin qiyməti kəskin şəkildə aşağı düşdü. İkincisi, neftin qiymətinin düşməsindən sonra pandemiya ilə əlaqədar karantinə qədər gəlirlərin, həmçinin iqtisadi və investisiya fəaliyyətinin azalması müşahidə olundu. Üçüncüsü, pandemiyaya görə səhiyyə, sosial və maliyyə sektorlarına dəstək xərcləri artmışdır. Bu mənfi vəziyyətə baxmayaraq, vergi və gömrük orqanlarının güclü fəaliyyəti sayəsində bu ilin ilk beş ayı üzrə büdcənin icrası müsbət olmuşdur. Büdcə profisiti 1,1 milyard manat təşkil etmişdir.

Natiq Əmirov bildirdi ki, gələcəkdə büdcə siyasəti sosial müdafiə və iş yerləri ilə makroiqtisadi sabitliyə dəstəyin göstərilməsi və neft fondunda rahat rezervlər səviyyəsinin saxlanılması arasında optimal balansı tapmaqdan ibarət olan əsas hədəfə cavab verməlidir. O, bunun üçün qaydaları hazırlamaq və optimal balansı tapmaq məqsədilə Dünya Bankı ilə əməkdaşlığı davam etdirməyin məqsədəuyğunluğunu vurğuladı.

Xanım Anna Byerde ölkəmizi yaxşı makroiqtisadi və fiskal göstəricilərə malik olması münasibətilə təbrik etdi. O, Azərbaycanın koronavirusun vura biləcəyi ziyanı minimuma endirmək üçün müvafiq tədbirlər həyata keçirdiyini dedi və bunu yüksək qiymətləndirdiklərini bildirdi. Vitse-prezident ölkəmizlə strategiya və sosial-iqtisadi inkişaf proqramı üzrə birgə əməkdaşlığa hazır olduqlarını vurğuladı. Anna Byerde qeyd etdi ki, iqtisadiyyatın şaxələndirilməsi və sosial sektora diqqətin artırılması çox vacibdir və Azərbaycan bu istiqamətdə ardıcıl işlər görür. O, Dünya Bankının tibbi sığorta, su sektoru, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, turizm, texnologiyalar və digər sahələrdə də ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirdi.

Sonra Bankın Cənubi Qafqaz üzrə regional direktoru **Sebastian Molineus** çıxış edərək dedi:

- Zati-aliləri cənab Prezident, Sizi yenidən görmək həqiqətən çox xoşdur. Sizinlə görüşmək üçün bu, üçüncü fürsətdir və hər görüşümüzdə tərəfinizdən verilən yüksəksəviyyəli strateji yönləndirmə və tövsiyələriniz bizim gələcək əməkdaşlığımız üçün gözəl yol xəritəsi təşkil edir.

Bizim uzunmüddətli tərəfdaşlığımızı bir daha vurğulamaq istəyirəm. Bu, artıq dəfələrlə qeyd edilib. Biz müstəqilliyinin ilk illərindən, həmçinin 2008-ci və 2011-ci illərdə dünyada yaşanan iqtisadi böhran zamanı Azərbaycanın yanında olmuşuq. Biz COVID-19 pandemiyası dövründə də Sizin güclü tərəfdaşınız olmaq niyyətindəyik. Cənab Prezident, istəyirəm biləsiniz ki, biz bütün bilik və maliyyə resurslarımızla Sizin yanınızdayıq və hər hansı digər bir dəstəyə ehtiyacınız olduğu təqdirdə biz buna hazırıq.

Burada eşitdiyim tövsiyələrinizlə bağlı qeydlərimi bildirmək istəyirəm. Birincisi strategiyaya aiddir. Burada bizim şaxələndirmə və inkişafla bağlı misilsiz imkanımız var və Siz də bunu qeyd etdiniz. Mən dövlət investisiyaları yönümlü modeldən özəl sektorun inkişafı modelinə keçidi nəzərdə tuturam. Bu, Azərbaycana yeni bir mövqedən çıxış etməyə imkan verə bilər. Biz hökumətinizlə ilkin müzakirələrə başlamışıq və bizim vitse-prezidentin qeyd etdiyi kimi, bunu saziş formasında rəsmiləşdirməyimiz işlərin qısa zamanda həyata keçirilməsini mümkün edəcək.

Zənnimcə, bugünkü qlobal böhran inkişafa bir növ yeni təkan verə bilər. Beləliklə, cəmiyyətdə sosial razılığın bərqərar olunması və insanların buna inamı təmin edilə bilər. İqtisadi artım və məşğulluq məsələləri istənilən strategiya üçün olduqca əhəmiyyətlidir və mən bunu yüksək qiymətləndirirəm. Biz uzun illər ərzində hər iki mövzu üzərində geniş şəkildə çalışmışıq.

Dünya Bankı və şəxsən mən yeni iş yerlərinin yaradılması üzərində uzun müddət çalışırıq. Biz 20 il ərzində Dünya Bankı tərəfindən məşğulluq sahəsində icra olunmuş layihələri yenidən təhlil edərək burada özəl sektorda dayanıqlı iş yerlərinin yaradılmasında yardımçı ola biləcək 3-4 mühüm amili müəyyən etdik. Birincisi, maliyyə resurslarının əlçatanlığı, yəni, inkişaf gündəliyini dəstəkləyən maliyyə sektorunun mövcudluğudur. İkincisi, bazarlara çıxışdır. Bu gün qlobal səviyyədə təchizat zəncirində mövcud olan gərginlik Azərbaycana yeni mövqedən çıxış etməyə, Avropa və Asiya arasında bağlantı yaradaraq həlledici rola malik olmağa imkan verə bilər.

Sebastian Molineus böyük və kiçik şirkətlərə istehsal gücünün və səmərəliliyin artırılması məqsədilə müasir texnologiyaların geniş tətbiqində ölkəmizlə əməkdaşlığı davam etdirmək, həmçinin Azərbaycanda dünya səviyyəli səhiyyə sisteminin yaradılması prosesinə, ölkəmizdə su ehtiyatlarının güclü idarəçiliyi, infrastrukturun gücləndirilməsi və su ehtiyatlarından tam şəkildə səmərəli istifadəyə yardımçı olmaq niyyətlərindən danışdı. O, Prezident İlham Əliyevin turizm, kənd təsərrüfatı sahələrinə diqqətin yönəldilməsi barədə tövsiyələrinin də nəzərdə saxlanılacağını qeyd etdi.

**Prezident İlham Əliyev:** Görülən işlər və gələcək planlarımızla bağlı dediklərinizə görə təşəkkür edirəm. Pandemiya dövründə Azərbaycan müsbət nəticələr göstərir. Hesab edirəm ki, bu, son vaxtlar başlanılmış çox ciddi islahatların yeni mərhələsi sayəsində mümkün olmuşdur. Burada əsas məsələ kölgə iqtisadiyyatının və qeyri-rəsmi məşğulluğun azaldılmasıdır. Çünki icbari tibbi sığorta yüksəksəviyyəli səhiyyə xidmətləri təqdim etməklə yanaşı, qeyri-rəsmi məşğulluqla mübarizədə də bizə yardımçı olacaq. Yəni, hələ də kölgədə fəaliyyət göstərənlər ağ iqtisadiyyata keçməli olacaqlar.

Bu, vacib nailiyyətdir və sizə bir rəqəm deyə bilərəm. Ötən il bizim vergi və gömrük orqanlarımız proqnozdan 600 milyon dollar əlavə vəsait toplayıblar. Əsasən də kölgə iqtisadiyyatının azaldılması sayəsində və bu proses davam edir. Cari ilin ilk 5 ayı ərzində vergi və gömrük orqanları proqnozdan 400 milyon manat artıq vəsait toplayıb. Bu, ticarət münasibətlərinin ciddi zərər gördüyü vaxtda baş verib.

Artıq qeyd edildiyi kimi, bizim milli valyutamız sabitdir və zənnimcə, bu da makroiqtisadi sabitliyin mühüm amillərindəndir. Biz anlayırıq ki, makroiqtisadi sabitlik olmadığı təqdirdə bütün səylərimiz sarsılacaq. Biz işsiz, aztəminatlı və pandemiyadan əziyyət çəkən sahələrdə, məsələn, turizm və digər sahələrdə çalışan yüz minlərlə insanın dəstəklənməsi üçün 2 milyard dollar həcmində sosial və iqtisadi paket təqdim etmişik. Təkcə kiçik sahibkarların sayı 600 minə yaxındır.

Beləliklə, biz həmin vəsaitləri pandemiyadan əziyyət çəkmiş insanlara lazımi dəstəyin göstərilməsi üçün ayırmışıq. Qeyd edildiyi kimi, bank sistemində, həmçinin dəyişikliklər gedir və bəzi bankların lisenziyası ləğv edilmişdir. İnsanların sığortalanmış bütün əmanətləri hökumət tərəfindən təmin edilmişdir.

Həmçinin bildirmək istərdim ki, pandemiya zamanı biz qlobal səviyyədə çox fəal çalışdıq. Biz artıq 29 ölkəyə humanitar yardım göstərmişik. Eyni zamanda, hazırda biz 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatına sədrlik edirik və həmin təşkilatın onlayn Zirvə görüşünü keçirdik. Həmin tədbir çox uğurlu oldu. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində maliyyə yardımı göstərmişik. Bu, bizim beynəlxalq öhdəliklərimizin bir hissəsi idi.

Strategiyanın formalaşdırılmasına gəldikdə, biz Dünya Bankının iştirakını çox alqışlayırıq. Fikrimcə, bu, gələcəyimizin planlaşdırılmasında bizə elə yardım edəcək ki, hədəfləri müəyyənləşdirəndə onlara nail ola bilək. Bir sözlə, strategiya məzmuna uyğun çox konkret olmalıdır və onun sayəsində biz dayanıqlı inkişaf məqsədlərinə və enerji sektorundan asılılığın azaldılmasına nail olmalıyıq.

Beləliklə, "Cənub qaz dəhlizi" istismara veriləndən sonra, əlbəttə ki, Azərbaycanın enerji sektoru daha çox potensial qazanacaq. Qeyri-enerji sektoru onunla rəqabət apara bilməyəcək, lakin hesab edirəm ki, iqtisadiyyatımızın əsas aparıcı qüvvəsi özəl sektor olacaq. Bu baxımdan mən Dünya Bankı nümayəndələrinin söylədikləri ilə tam razıyam.

Səhiyyə sektoruna gəldikdə, fikrimcə, son on altı il ərzində səhiyyə infrastrukturuna yatırdığımız sərmayələr, hazırda bizə koronavirusla mübarizə aparmaq imkanını yaratdı, çünki səhiyyə sistemimiz daha çox insanları müalicə etməyə qadirdir. Əfsuslar olsun ki, sərt məhdudiyyətlərin aradan qaldırılmasından sonra ölkəmizdə yoluxan insanların sayında artım var. Lakin səhiyyə sistemimiz bunun öhdəsindən gəlir. Ümid edirəm ki, gələcəkdə də bu imkanlar olacaq. Bir sözlə, səhiyyə sistemi yaxşı keyfiyyətini göstərməkdədir. Lakin əlbəttə ki, bizim ciddi təkmilləşdirməyə ehtiyacımız var və bunun üzərində birmənalı olaraq işləyəcəyik.

Su layihələri haqqında söylədiyim məqamlara qayıdaraq, cənab Molineisun söylədiyi "su təhlükəsizliyi" termini ilə tam razıyam. Bu, həqiqətən də bizim üçün təhlükəsizlik məsələsidir. Tam razıyam ki, biz bu sahəyə görə məsuliyyət daşıyan şirkətlərimizin və dövlət təşkilatlarının strukturunun lazımi qaydada formalaşdırılması məqsədilə təsisat əsasları üzərində çalışmalıyıq. Biz infrastruktura ciddi sərmayələr qoyacağıq. Bunlar bizim builki dövlət sərmayə proqramında əks olunub. Ümid edirik ki, Dünya Bankı ilə birgə infrastruktur və qənaət sahəsində biz daha geniş miqyasda işləyə bilərik. Burada qənaətə yeni texnologiyaların tətbiqi və lazımi idarəçilik nəticəsində nail olunması nəzərdə tutulur.

Qaldırmaq istədiyim digər bir məsələ də var və o, daim bizim gündəliyimizdədir. Həmin məsələ ətraf mühitin qorunmasıdır. Bu, xüsusən də Bakı və Abşeron yarımadasına aiddir. Həmin yerlərdə əsrlər boyu neft və qaz hasilatı bizim üçün çox ciddi çətinliklər yaratmışdır. Biz böyük həcmdə təmizləmə əməliyyatlarını aparırıq, lakin ola bilsin, bizə daha çox dəstək lazımdır. Bu, xüsusən də texnologiya və məsləhətlər baxımdan veriləcək dəstəyə aiddir. Buna görə, fikrimcə, gələcək əməkdaşlığımızın sahələrindən biri Abşeronda və Bakıda neftlə çirklənmiş sahələr üzrə ekoloji layihələrin həyata keçirilməsi ola bilər.

Anna Byerde indiki gərgin bir dövrdə keçirilən bu görüşdə faydalı müzakirələrə imkan yaratdığı üçün Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, Dünya Bankı təmasların qurulmasına, Azərbaycanda islahatların sürətlənməsinə bundan sonra da dəstək verməkdən çox məmnun olardı.

**Prezident İlham Əliyev:** Sağ olun, xanım vitse-prezident. Təşəkkür edirəm, əziz dostlar. Bu təşəbbüsə görə minnətdaram. Mən apardığımız müzakirədən çox razı qaldım. Fikrimcə, biz bütün mühüm sahələri əhatə etdik. Bu gün fikir mübadiləsi apardığımız ideyaları icra etməyə başlayacağıq. Ümid edirəm ki, gələcəkdə bizim əməkdaşlığımız keçmişdəki kimi uğurlu olacaq. Əlbəttə, zaman keçir, yeni çağırışlar və prioritetlər ortaya çıxır. Lakin hesab edirəm ki, müzakirə etdiyimiz bütün məsələlər birgə səylərimiz sayəsində reallığa çevrilə bilər. Azərbaycana verdiyiniz davamlı dəstəyə və bu imkanlara görə bir daha minnətdaram. Sizi pandemiya bitən kimi Bakıda görməyimə ümid edirəm.

**Anna Byerde:** Sağ olun.

**Prezident İlham Əliyev:** Minnətdaram. Sizə uğurlar arzulayıram, sağ olun.



◆ Mənəviyyat mövzusunda

# QƏDİRBİLƏNLİK SINAĞI



*Bu yazının yazılma səbəbi adlarını çəkmək istəmədiyim iki hörmətli insanın dedikləri oldu!*

*Regionda çalışan məmur dostum: "Həyatımızda baş verən hər bir müsbət, yaxud mənfi halların səbəbkarı biz dövlət məmurlarıyıq. Prezidentimizin dediklərini və bizə verdiyi tövsiyələri dəqiqliklə yerinə yetirməyi bacarmalıyıq!"*

*Hörmətli el ağsaqqallarından biri: "Son vaxtlar camaatımız bir qədər ərköyünləşib. Dövlətdən nəyisə tələb etməyi də, olanları, görülən işləri düzgün qiymətləndirməyi və danışanda səbirli olmağı da bacarmalıyıq! Təəssüf ki, kəmhövsələ olmuşuq, sosial şəbəkədə isə müsbət hallardan yazmaqdan çox, müsbətin içindən bir nöqsan tapıb çıxararaq hallandırmağın həvəskarıyıq. Unutmayaq ki, indiyəcən görülən işlərin heç biri asanlıqla başa gəlməyib!"*

**Bəli, son zamanlar Azərbaycanda baş verən inqilabi irəliləyişlər və əsaslı islahatlar, gördüklərimizin və nail olduqlarımızın heç biri sehrli çubuğun törətdiyi möcüzəli dəyişikliklər deyil!**

**Cənab İlham Əliyevin gərgin, davamlı, düşünülmüş və nəticəyə hesablanmış siyasətinin bəhrəsidir!**

Bu kontekstdə iki suala da cavab verməyə çalışaq:

*Olanları qiymətləndirməyi, olasılara zamanında və düzgün dəstək verməyi hamımız bacarırıqmı?*

*Vətəndaş məmnunluğu yaradanlara vətəndaş köməyi göstərərək vətəndaş münasibəti bəsləyirikmi?*

## MƏMUR XALQIN XİDMƏTÇİSİDİR

**Əgər dövlət başçısı özünü "xalqın bir nömrəli xidmətçisi" elan edirsə, biz onu düzgün anlamalı və bu alicənablığı qiymətləndirməliyik!**

Çünki Azərbaycan Prezidenti bunu təkcə bəyan etmir, həm də gündəlik fəaliyyətində, imzaladığı fərman və sərəncamlarda, cəmiyyətin bütün təbəqələrini əhatə edən insanlarla keçirdiyi görüşlərdə, sistemli və məqsədyönlü şəkildə atdığı addımlarda - bütövlükdə, həyata keçirdiyi siyasi xətdə də aydın nümayiş etdirir.

Gəlin lap yaxın keçmişimizi, cənab İlham Əliyevin hakimiyyətə gəldiyi ikiminci ilin əvvəllərini (hələ 90-cı illərin xaos dövrünü demirəm) xatırlayaq. Ölkənin, xüsusən regionun vəziyyəti necə idi?

*Elektrik enerjisi böyük fasilələrlə verilir, qışda isinməyə, yayda bir çaynik çay qaynatmağa qaz tapılmırdı. Yollar bərbad vəziyyətə düşmüşdü, məcburi köçkünlər çadır şəhərciklərində qeyri-insani şəraitdə, ümidsiz vəziyyətdə yaşayırdılar. Yeməyə çörək, işləməyə iş, xəstələnəndə dərman almağa pul tapılmırdı!*

*Qalmışdıq xarici dövlətlərdən göndərilən yardımların umuduna...*

**Yaman günün ömrü az olar - demişlər!**

**Amma yaman günü unutmaq da olmaz!**

**Şükür! Çadır şəhərciklərindən, vaqon evlərdən, təhlükəli binalarda yaşamaqdan canımız qurtarıb!**

111 qaçqın şəhərciyi və yaşayış kompleksi salınıb və məskunlaşdırılıb!

Regionların sosial-iqtisadi inkişafına dair dörd Dövlət Proqramı müstəqil Azərbaycanın simasını büsbütün dəyişdirib!

*İndi ölkənin hər yerində işığımız, mənzillərimizdə təbii qazımız, içməli su və kanalizasiya xəttimiz, abad və rahat yollarımız var!*

*İşsizlik və yoxsulluq əlli faizdən 4-5 faizədək endirilib!*

*Paytaxt Bakıdan çıxaraq ölkənin hansı səmtinə üz tutsaq, yolboyu kənd və qəsəbələrin necə abadlaşdığının, bir-birindən yaraşıqlı çoxsaylı fərdi evlərin tikildiyinin, beynəlxalq standartlara cavab verən yollarda bütün markalardan olan saysız xarici maşınların sürüldüyünün şahidi oluruq.*

**Əsaslı islahatlar yoluna qədəm qoyduğumuz bir neçə ildə inkişaf sürətimiz daha da artıb, dünyanın bizə münasibəti və verdiyi qiymət xeyli yüksəlib!**

**Dövlət başçısı minimum əməkhaqqını, maaşları, təqaüdləri, müavinətləri, yardımları bir neçə qat yüksəldib!**

Və bundan sonra əməkhaqlarının, paralel olaraq xalqın sosial rifahının ardıcıl və sistemli qaydada artırılması yönündə tədbirlər görüləcəyini bəyan edib!

❖ ❖ ❖

Əhalinin təbii artımının davam etdiyi bir vaxtda işsizliyin aradan qaldırılması daim diqqət mərkəzində saxlanılır. Kənd yerlərində ənənəvi bitkiçilik növləri bərpa edilir, pambıq, üzüm, tərəvəz, barama istehsalı ilbəil artırılır, yeni yaşıl parklar və sənaye məhəllələri salınır.

Sahibkarlığın inkişafına, onlara dövlət dəstəyinin gücləndirilməsinə ciddi diqqət yetirilir, sahibkarların yeni iş yerləri yaratmaları təşviq edilir.

**Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə bölgələrdə yaradılan və nisbətən aztəminatlı ailələr üçün nəzərdə tutulan ödənişli iş yerlərinin sayı artırılaraq 90 minə çatdırılır.**

*Vətəndaş-məmur münasibətləri təkmilləşdirilir, bu məsələdə vətəndaş məmnunluğunun təmininə xüsusi fikir verilir.*

*Dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət", həqiqətən, həyatımızı xeyli asanlaşdırıb!*

❖ ❖ ❖

Vaxt var idi icra hakimiyyəti başçılarının qəbuluna düşmək üçün həftənin xüsusi gününü gözləmək lazım gəlirdi.

Nazirlər, komitə sədrləri və digər yüksək çinli məmurlar ilə görüşmək müşkül məsələ idi.

Xüsusi mühafizəçilər vətəndaşı heç binaya daxil olmağa belə qoymurdular!

**Prezident İlham Əliyevin tapşırığı ilə indi həmin məmurlar özləri bölgələrə - vətəndaşın ayağına gedir, mətbuatda qabaqcadan elan edilən bəlli günlərdə yerlərdə şikayətçiləri qəbul edirlər! (Yaxud onlayn formatda görüşlər keçirilir).**

**Rayonların icra başçıları isə daim kənd və qəsəbələri gəzərək yerlərdə sakinlərlə görüşürlər!**

Daha icra başçısının qəbuluna düşmək üçün rayonun deputatına müraciət edən seçici yoxdur!

**Həyata keçirilən islahatların bəhrəsi olan bu yenilikləri inqilabi dəyişikliklər də adlandırmaq olar.**

*Amma belə dəyişikliklərə hamı, bütün tərəflər hazır olmalıdırlar.*

*Reallıqla, mövcud vəziyyətlə hesablaşmaq da vacibdir!*

**Birdəfəyə hamını işlə, mənzillə təmin etməyin, istədiyin qanuna müvafiq deyilsə, onu yerinə yetirməyin mümkünsüzlüyünü də dərk etməliyik!**

❖ ❖ ❖

On il bundan qabaq bizə əlçatmaz görünənlərin bir çoxu artıq gerçəyə çevrilib.

Dövlət də ailə kimidir!

Ailə başçısının imkanı, vəsaiti olmasa, hətta doğma övladlarının da istəyini dərhal təmin edə bilmir!

Həm də bunu nə qədər arzulasa da belə!

**Biz yalnız dövlət büdcəsinin və hazırkı zamanın imkan verdiklərini yerinə yetirə bilirik!**

Həm də istənilən istiqamətdə ardıcıl və məqsədyönlü işlər görməklə arzu edilənlərin reallaşması yolunda daim zəruri addımlar da atırıq.

*Bir də gərək unutmayaq: tələb və təkidin də əndazəsi var!*

Vəzifəli şəxsi divara dirəməklə mümkün olmayanı ondan almaq mümkünsüzdür!

Nə qədər ərizə və şikayət yazsaq da!

Dövlət başçısı İlham Əliyevin bəyan etdiyi: "Dövlət başçısı xalqın xidmətçisidir!" sözünü hədəyə çevirərək: "Prezident belə demişdir!" - söyləməklə məmuru küncə qısnamaq, hətta bəzən qeyri-etik davranışa və ifadələrə əl atmaq nəyə gərəkdir?

**Bir-birimizə hörmətlə yanaşmağı, istəyimizin mümkünlüyünü, reallığını da doğru-düzgün qiymətləndirməyi bacarmalıyıq!**

*Həm də gərək unutmayaq:*

*Məmur hissiz, duyğusuz insan deyil!*

*Məmur hüdudsuz səlahiyyət sahibi də deyil!*

## XÜSUSİ İMTİYAZ SAHİBLƏRİ

**Biz iyirmi min şəhid vermişik!**

**Bu o deməkdir ki, iyirmi min Vətən övladı vaxtından əvvəl dünyasını dəyişib!**

Xalqımızın və dinimizin müqəddəs saydığı uca məqama yüksəlib!

■ Şəhidlərimiz arasında doğmalarımız olub!

■ Şəhidlərimiz arasında qohumlarımız olub!

■ Şəhidlərimiz arasında dostlarımız olub!

■ Şəhidlərimiz arasında sinif və qrup yoldaşlarımız olub!

*Onlar bizi ağladıb, ağrıdıb, kədərləndirib və həm də qürurlandırıblar!*

*Ona görə yox ki doğma, qohum, dost olublar!*

*Əsla!*

*Canlarını Vətən yolunda, torpaqların müdafiəsi uğrunda fəda etdikləri üçün hər birimizin əzizinə, sevgi ünvanına, qürur mənbəyinə çevriliblər!*

Şəhidləri heç zaman bir-birilərindən fərqləndirməmişik!

Hamısı bizim üçün müqəddəs insan, unudulmaz Vətən övladı sayılıb!

Şəhidə belə münasibəti hər bir azərbaycanlıda görmüşük!

Hər bir dövlət məmurunda, sənət sahibində görmüşük!

Hər bir hərbçidə, ruhanidə, adi vətəndaşda görmüşük!

Ən nəhayət, dövlət başçısında - Ali Baş Komandanımızda görmüşük!

Şəhid ailəsinin hər bir üzvünün bu ağır itkidən necə sarsıldığının daim şahidi olmuşuq!

Şəhid itkisinin ağırlığından əyilən qəddi, bükülən belləri görmüşük!

Hər dəfə şəhid atasının üçrəngli dövlət bayrağını hərbçilərdən alarkən özündə qüvvət taparaq "Təki Vətən sağ olsun!" sözünü qürurla səsləndirdiyini eşitmişik!

Şəhid övladlarının analarına qısılaraq ona həyan durduqlarını, dərdlərini içlərində çəkdiklərini zaman-zaman müşahidə etmişik.

**Dövlət də şəhid ailəsinin dayağına, qayğı ünvanına çevrilməyi bacarıb!**

**Ehtiyacı olanlara ev verib, mümkün olan istəyini təmin edib, birdəfəlik yardım, aylıq müavinət ayırıb!**

❖ ❖ ❖

...Rayon icra hakimiyyətlərinin birində rastlaşdığım hadisəni heç zaman unutmaram!

... Şəhid Milli Qəhrəman övladı utanıb sıxıldığından tez-tez üzünü divara çevirir və xəlvətcə göz yaşlarını silməyə çalışırdı...

Nəsə istəməyə (tələb etməyə yox) gəldiyinə görə utanıb çəkinirdi...

İcra başçısı onu ürəkləndirdi, kiritməyə çalışdı...

Sonra telefonun dəstəyini götürərək daha yuxarı instansiyaya müraciət və xahiş etdi...

Məsələ dərhal həllini tapdı!

Çünki dəstəyin o başındakı məmur da şəhid ailəsinə hörmətlə yanaşan insan, Prezidentin tələb və tövsiyələrini yerinə yetirən vətəndaş idi!

İcra başçısı şəhid Milli Qəhrəmanın qızını yüngülcə məzəmmət də etdi:

■ Dərhal gəlib kömək istəmədiyinə görə;

■ Dövlət idarəsinin qapısını ürəklə açmadığına görə;

■ Göz yaşlarını saxlaya bilmədiyinə görə!

*Bu görüş hər iki tərəfin məmnunluğu ilə başa çatdı!*

*Daha bir şəhid övladı dövlətin ona verdiyi imtiyazdan bəhrələndi!*

❖ ❖ ❖

**Biz şəhid övladlarını belə görmüşük və belə də təsəvvür edirik!**

Təəssüf ki, sosial şəbəkədə çox nadir hallarda da olsa, başqa vəziyyətin də şahidinə çevrilirik:

■ Şəhid övladı deputatlığa namizədlə görüşdə meydan sulayır, heç kimə aman vermədən danışır, ittiham edir, qərar çıxarır, qınayır...

■ Nə namizədə hörmət qoyur, nə də ətrafdakılara!

■ Tez-tez də "titulunu" gözə soxur!

*Təəssüflənirsən, ürəyin ağrıyır!*

*Niyə insanlar onlara olan hörmət və ehtiramı öz növbələrində başqalarına da göstərmirlər?!*

*Niyə dövlət və cəmiyyətin onlara bəslədiyi hörmətdən sui-istifadəyə çalışırlar!*

Niyə özlərini bu sayaq, hakimimütləq kimi aparırlar!

**Belə mənzərəni seyr etmək də çətindir, qələmə almaq da!**

**Amma deməmək də olmur!**

Çünki biz təkcə şəhidlərimizin yox, onların ailə üzvlərinin də, qazilərimizin də daim yüksəkdə dayanmalarını arzu etmişik!

## ÜSTÜNLÜK YOX, QÜRUR MƏNBƏYİ

Tale elə gətirdi ki, xalqımız ikinci dəfə müharibə ağrı-acısını, məşəqqət və çətinliklərini yaşamalı oldu!

Bu dəfə müharibəni 1941-1945-ci illərdə olduğu kimi uzaqda yox, evimizin içində gördük!

Şəhid ağrısını, məşəqqətli qaçqın həyatını dörd yanımızda, içimizdə yaşadıq!

Bu dəfə "qara kağız"ı yox, itkilərimizin cəsədini aldıq, şəhidlərimizi öz əllərimizlə dəfn etdik!

"Əsgər ailəsi" yox, "şəhid ailəsi", "şəhid arvadı", "şəhid övladı" terminlərini işlətməli olduq!

Həm də demək olar ki, belə insanlarla yanaşı yaşamağa, hər gün onları görməyə, təmas qurmağa alışdıq!

❖ ❖ ❖

Bizim də - "Azərbaycan" qəzeti kollektivinin də şəhidi var - adı Elgün İsmayılovdur!

Həmişə onunla fəxr edib, taleyinə acıyırıq!

Hər il ad günündə 2-ci Fəxri xiyabanda qəbrini ziyarət edir, ruhuna dualar oxuyur, məzarı üstə təzə-tər gül düzürük.

Sonra redaksiyaya qayıdaraq adına və xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsinə yekun vururuq.

*Elgün İsmayılovun vətənpərvərliyini və igidliyini bu mövzuda hazırlanan qəzet yazılarının stimuluna çeviririk.*

*Öz şəhidimiz olduğu üçün heç zaman özümüzü, kollektivimizi heç kimdən üstün tutmuruq!*

**Bunu qəzetlər arasında imtiyaza çevirməyə cəhd etmirik!**

**Heç başqalarının başına qaxınca da çevirmirik!**

**Tale qisməti sayırıq...**

Fəxr və qürur mənbəyi hesab edirik, ən əsası, faciəsini əziz tutub daim hörmət və ehtiramla yad edirik!

❖ ❖ ❖

Parlament seçkiləri hər bir xalqın həyatında çox mühüm bir hadisədir.

Budəfəki, növbədənkənar parlament seçkiləri isə bizim üçün, dövlətimiz üçün xüsusi əhəmiyyət daşıyırdı.

*Müstəqil Azərbaycan öz inkişafının yeni mərhələsinə daxil olur.*

*İslahatlar dərinləşir və həyatımızın bütün sahələrinə nüfuz edir.*

*Dövlət başçısının müdrik, düşünülmüş siyasəti uğurlu nəticələr verir.*

*Onun atdığı hər bir addım dövlətimizin mənafeyinə, hər birimizin maraqlarına xidmət edir.*

*Bu yüksəlişdə, bu islahatlarda və yeniləşmədə hər birimiz Prezidentimizin yanında olmalı, ona dayaq durmalıyıq.*

❖ ❖ ❖

Hakimiyyətin qanunvericilik qolu sayılan Milli Məclis yeniləşmə və dəyişmələrin qanuni əsaslarını təmin edən orqandır.

Parlament dövlət başçısının istəklərinə operativ reaksiya verməli, görüləsi işlərin qanuni əsaslarını təmin etməlidir.

*Odur ki, bu mötəbər məclisə vətənpərvər, müstəqil dövlətinə sədaqətli, bilikli və təcrübəli, peşəkar insanlar seçilməlidir.*

*Bu, hamımızın marağındadır.*

**Bu istəyin gerçəkləşdirilməsində isə hər birimizin əlində yeganə "silahımız" sayılan seçici səsimiz var!**

Məhz bu səslə biz layiqli saydığımız namizədə dayaq dura, öz köməyimizi göstərə bilirik.

Bunun üçün bizdən bircə şey tələb olunur: səsvermə günü məntəqəyə getmək, pərdə arxasına keçərək bülletendəki istədiyimiz namizədin adının qarşısına müvafiq işarəni qoyaraq münasibət bildirmək!

Milli Məclisə seçkilərlə bağlı aparılan təşviqat kampaniyası zamanı sosial şəbəkələrdə nələrin şahidi olmadıq...

*Bəzi yerlərdə görüşə gələn namizədlərə münasibətdə xalqımızın qonaqpərvərlik adətinə əməl edilmədiyini, milli-mənəvi dəyərlərin unudulduğunu, kobudluq və qabalığın baş alıb getdiyini ürəkağrısı ilə seyr etdik...*

**Axı belə hərəkət namizədə münasibət bildirmək deyil!**

**Axı bu nə qanun məcəlləsinə, nə də yazılmayan qanunlarımızın, mənəviyyatımızın tələblərinə uyğun deyil!**

Üstəlik, həmin namizədlərin bir qismi hələ də fəaliyyətdə olan deputatlar idi...

## ÖZÜMÜZƏ VƏ BAŞQALARINA HÖRMƏT EDƏK

*Bəyənmirsən, bəyənmə!*

*İstəmirsən, istəmə!*

*Belə şəbeh kimə, nəyə lazımdır!*

**Biləndə ki bu etirazçıların önündə gedənlər "şəhid övladları", "qazi" statusunu daşıyanlardır, əlin yerdən-göydən üzülür...**

Biz Azərbaycan əsgər və zabitini ən güclü, ən mənəviyyatlı insanlardan hesab edirik!

Şəhidlərimiz bizim üçün ən yüksəkdə dayananlardan sayılır!

Dövlətimiz də, hər birimiz də onların xatirəsini daim uca tutur, məzarlarını daim gül-çiçəyə qərq edir, xatirələri önündə baş əyirik.

Çünki onlar Vətən uğrunda şəhid olublar!

Çünki onlar torpaq yolunda verə biləcəkləri ən böyük qurbanı - həyatlarını veriblər!

Çünki onlar sağlamlıqlarından keçiblər!

*Dövlət də nə mümkünsə edir!*

*Hətta başqa ölkələrdə olmayan imtiyaz, kömək, yardım və qayğı bizim şəhid ailələrinə, qazilərimizə göstərilir!*

*İmkanlar artdıqca köməyin həcmi də artır!*

Lakin...

Hər şeyin hüdudu var, axı!

**Hər bir addım əndazə daxilində atılmalıdır!**

**İstər xahiş, tələb olsun, istərsə də etiraz!**

**Bu əndazənin hüdudlarını isə qanun və mənəviyyat müəyyən edir!**

■ Heç kəs statusundan sui-istifadə etməməlidir, hətta əsəbiləşəndə belə!

■ Kimsə dövləti tərəfindən əzizlənəndə ərköyünləşməməlidir!

■ *Məmur özbaşınalığına qarşı ciddi mübarizə getdiyi zamanda vətəndaş hörmətsizliyi yaranmalı deyil!*

- İnsanlar onlara göstərilən qayğı və diqqəti dəyərləndirməyi bacarmalıdırlar!

- Hər kəsin bir səsi var - onu kimə istəsə verə bilər!

- Hər kəsin öz fikri, mövqeyi var - yığıncaqda, görüşdə, istənilən tədbirdə söz alıb deyə bilər!

**- Eyni zamanda hər xalqın öz mənəvi dəyərləri, o cümlədən adət-ənənələri var və hər bir kəs ona hörmətlə yanaşmağa borcludur.**

**Hətta xüsusi status, imtiyaz sahibi olsa da belə!**

❖ ❖ ❖

Gəlin ədalətli olaq!

Gəlin insaflı olaq!

Gəlin görülən gözəl işlərə dəstək və qiymət verməyi bacaraq!

Özümüzə və başqalarına hörmət qoyaq!

❖ ❖ ❖

Koronavirus da xalqımız və dövlətimiz üçün növbəti sınaq oldu!

Təkcə bizə yox, bütün dünyaya!

Fiziki və tibbi yox, həm də bacarıq, təşkilatçılıq, ən əsası, mənəvi sınaq oldu!

**Bilindi ki, hansı dövlət başçısı nəyə qadirdir, xalqını nə dərəcədə sevir, xalq onu necə eşidir, müdafiə edir, ətrafında necə birləşir!**

**Bu mənada Azərbaycan Prezidenti və Azərbaycan xalqı COVID-19-un sınağından uğurla çıxdı!**

**Prezident İlham Əliyevin bütün bacarıq və məharəti xalqı sevindirdi, dostları qürurlandırdı, bütövlükdə, dünya üçün nümunəyə çevrildi!**

*Dünyanın dövlət və siyasi xadimləri bunu rəsmən və minnətdarlıqla etiraf etdilər!*

*Xalqın bir sevinci də qürurdan doğdu: onun rəhbəri daim yanındadır, müdrik və uzaqgörəndir, dünyada böyük nüfuz və hörmət sahibidir!*

❖ ❖ ❖

Sınaq davam edir!

*Virus nə vaxt yox olacaq? - Bilinmir!*

*Virusa qarşı vaksin tapılacaqmı? - Bilinmir!*

*Ümumiyyətlə, vaksin və dərman tapılacaqmı? - o da bilinmir!*

Bu o deməkdir ki, mübarizə davam edir və uzun müddət ehtiyat əldən verilməməlidir!

Qarşıda bizi nə gözləyir - karantin rejimini yumşaltma, yaxud sərtləşdirmə - onu da dəqiq söyləmək çətindir.

Bilinən odur ki, COVID-19-a qarşı mübarizənin birinci mərhələsi dövlət başçısının uzaqgörənliyi, müdrikliyi və qabaqlayıcı tədbirləri nəticəsində cilovlandı!

*Arxayınlaşmaq olmaz!*

*Prezident İlham Əliyevin ətrafında birləşməliyik!*

*Prezident İlham Əliyevin dediklərinə əməl etməliyik!*

*Prezident İlham Əliyevi dəstəkləməkdə davam etməliyik!*

**Koronavirus sınağından xalqımızı və dövlətimizi uğurla çıxarmağı bacaran Prezidentimizin qədrini bilməliyik!**

**Bəxtiyar SADIQOV**



















## Ağstafa rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağstafa rayonunun Muğanlı kəndində əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.21-ci yarımbəndində göstərilmiş məbləğin 2,5 milyon (iki milyon beş yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri,

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyur, dost Azərbaycan xalqına tərəqqi və firavanlıq arzu edirəm.

Ölkələrimiz arasında mövcud olan əməkdaşlıq əlaqələrinin dost xalqlarımızın mənafeyi naminə daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirməkdə maraqlı olduğumuzu bir daha qeyd edirəm.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə, Qardaşınız*

***Məhəmməd vələd əş-Şeyx əl-ĞƏZVANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

# "Bir daha əmin olduq ki, ən çətin günlərdə güvənə biləcəyimiz rəhbərimiz var"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Laçın rayonundan məcburi köçkün **Bəhruz Mehrəliyev:** "Cənab Prezident, Ulu Öndərimiz Heydər Əliyev biz məcburi köçkünlərə hər zaman qayğı ilə yanaşardı. Allah Ulu Öndərimizə rəhmət eləsin, onun xatirəsi bizim qəlbimizdə həmişə yaşayacaqdır. Siz Prezident seçilərkən sevindik ki, gələcəyimiz daha da yaxşı olacaq və Azərbaycanımız gündən-günə çiçəklənəcək, gözəlləşəcəkdir. Sonrakı hadisələr bizim yanılmadığımızı göstərdi. Xalqımız bu gün güclü, qüdrətli Azərbaycanla fəxr edir.

Təbii ki, Sizin və Mehriban xanım Əliyevanın ölkəmiz üçün gördüyünüz işlər danılmazdır. Uğurlu addımlarınızla Sizə olan güvənimizi, inamımızı daha da gücləndirirsiniz. Digər ölkələrlə müqayisədə bizim ölkə sürətlə inkişaf edir və əmin-amanlıq hökm sürür.

Cənab Prezident, ailəmiz adından Sizə və ailənizə cansağlığı, uzun ömür diləyirəm. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz var. Yaşasın Azərbaycan".

Gəncə şəhər sakini **Rauf Abbasov** yazır: "Hörmətli cənab Prezident, Azərbaycan bütün gözlənilməz hallara hazır olduğu kimi, bu gözəgörünməz virusla, təhlükəli düşmənlə də uğurla mübarizə aparır. Pandemiyanın ən kəskin günlərində belə biz digər ölkələrlə müqayisədə daha yaxşı statistika ortaya qoya bildik. Bu üç ay ərzində Azərbaycan beynəlxalq səviyyəli konfranslardan kənarda qalmadı. Biz bu dövrdə ölkəmizin texniki imkanlarının da yaxşı vəziyyətdə olduğunu gördük. Azərbaycanın evsahibliyi ilə, Sizin müdrik rəhbərliyiniz sayəsində nüfuzlu beynəlxalq videokonfranslar keçirildi. Daha sonra dövlət hakimiyyəti orqanları öz sahələri üzrə videokonfranslar yolu ilə fəaliyyətlərini qurdu. Yeni görünən odur ki, ölkəmizdə heç bir sahədə işlər axsamadı. Demək ki, bu şərtlərdə də yaşamaq, müəyyən ölçüdə evdən də işləmək, dövləti uğurla idarə etmək mümkün oldu. Eyni zamanda bütün təhsil ocaqlarımız da distant şəkildə idarə olundu. Bu da bir sınaq, keçid dövrüdür. Düşünürəm ki, insanlarımız nikbin olmalıdır. Sizin uzaqgörən siyasi baxışınız nəticəsində, el birliyi ilə biz bu problemi də aşacağıq. Allah Sizi qorusun, cənab Prezident. Biz həmişə Sizinləyik".

Ağcabədi sakini **Hafiz Atakişiyev** dövlət başçısına təşəkkürünü bu sözlərlə ifadə edir: "Möhtərəm Prezidentimiz, dünyanı çənginə alan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində atdığınız zəruri qabaqlayıcı addımlar bir daha onu sübut edir ki, Siz hər zaman xalqın yanında olmusunuz. Ağcabədi sakinləri, eləcə də biz gənclər rayonumuzda "ASAN xidmət" mərkəzinin açılacağı günü səbirsizliklə gözləyirdik. Bir tərəfdən rayon əhalisi bir məkandan şəffaf qaydada bir çox dövlət və özəl xidmətlərdən yararlanacaq, digər tərəfdən isə gənclərimizə əlavə fürsətlər açılacaq. Hər zaman yanımızda olduğunuz üçün Sizə təşəkkürümüzü bildiririk".

Quba rayonunun Mirzəqışlaq kəndindən **Alim Məmmədov, İbrahim Abasov, Rövşən Babayev, Ramin Kazımov** və **Ceyhun İsrafilov** yazırlar: "Möhtərəm cənab Prezident, bu məktubu Sizə və ailə üzvlərinizə dərin təşəkkürümüzü bildirmək üçün yazırıq. Yaşadığımız qədim Mirzəqışlaq kəndi Quba rayonunun mərkəzindən 20 kilometrlik məsafədə yerləşir. 1986-cı ildə kənd sakinləri qonaqpərvərlik göstərərək məhsəti türklərindən olan 20 ailəni qəbul edib və hazırda onlarla mehriban yaşayırlar.

Son illər kəndimizə göstərilən qayğı bizi sevindirir. Belə ki, iki il əvvəl kəndimiz təbii qazla təchiz olundu. Bu il isə kəndimizə 3,5 kilometr uzunluğunda asfalt yol çəkildi. Kəndimizin sosial problemləri, demək olar ki, öz həllini tapıb. Azərbaycanın şəhərlərində, rayonlarında, kənd və qəsəbələrində ölkə vətəndaşlarına yaradılan bu gözəl şəraitə görə Sizə təşəkkür edir, Ulu Tanrıdan Sizə və ailə üzvlərinizə cansağlığı, uzun ömür arzulayırıq".

Siyəzən rayonundan **Əli Eldarov:** "Möhtərəm cənab Prezident. Bir din xadimi kimi bildirmək istəyirəm ki, azad, firavan ölkədə yaşayıb rahat ibadətlə məşğul ola biliriksə, buna görə Sizə borcluyuq. Din bizim mənəvi dəyərimizdir. Bütün dünyanı çənginə alan COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Amma Sizin rəhbərliyinizlə görülən işlər sayəsində Azərbaycan digər ölkələrlə müqayisədə daha az itki verdi. Siz COVID-19 pandemiyası dövründə böyük fədakarlıq göstərərək, insanların maddi ehtiyaclarının ödənilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində uğurlu işlər gördünüz. Siz koronavirusun yayıldığı ilk günlərdən vətəndaşların yanındasınız, onlara kömək göstərirsiniz.

Cənab Prezident, bir daha əmin olduq ki, ən çətin günlərdə güvənə biləcəyimiz rəhbərimiz var. Azərbaycan xalqı Sizi daim dəstəkləyir. Allah Sizi və xalqımızı qorusun".

Tərtər rayonundan **Tunarə Məmmədzadə:** "Çox hörmətli cənab Prezident, Sizin Tərtər rayonuna hər səfəriniz biz tərtərli gənclər üçün toy-bayrama çevrilir. İndi biz gənclərin bir araya gəlməsi üçün gənclər mərkəzimiz, şahmat gənclər idman məktəbimiz, möhtəşəm olimpiya idman kompleksimiz var. Siz gənclərimizin təhsilinə, tərbiyəsinə diqqət və qayğı ilə yanaşdığınız kimi, onların sağlamlığına da xüsusi diqqət yetirirsiniz. Açılışını yenicə etdiyiniz olimpiya idman kompleksi bunun bariz nümunəsidir.

Cənab Prezident, dünyanı koronavirus pandemiyasını ağuşuna aldığı bir vaxtda, bütün çətinliklərə baxmayaraq, rayonumuza səfər etdiyiniz, bizimlə birgə olduğunuz üçün cəbhə bölgəsində yaşayan vətənpərvər gənclər adından Sizə minnətdarlığımızı bildiririk. Biz gənclər həmişə Sizinləyik və Sizin rəhbərliyinizlə istər təhsildə, istər istehsalat, istərsə idman sahəsində yeni-yeni uğurlara imza atmağa söz veririk. İnanırıq ki, Qarabağımız tezliklə işğaldan azad ediləcək, o torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanacaq. Tanrı Sizi, ailənizi və xalqımızı qorusun".

Salyan rayonunun Kürsəngi kəndinin ağsaqqalları adından **Ağalı Osmanov, Habil Qurbanov, Hümmət Qəribov, Əflan Hüseynov** və **Əli Cavadov** yazırlar: "Möhtərəm cənab Prezident, kəndimizdə aqrar sektorda inkişaf dinamikası müşahidə edilir. Hazırda taxıl biçini mövsümüdür. Biçinə yeni kombaynlar cəlb edilmişdir. Ümumilikdə kəndimizdə taxıl biçini zamanı tələbatı tam ödəyə biləcək sayda kombayn mövcuddur. Həmçinin dövlət dəstəyi ilə özəl sektor tərəfindən lazımi texnikalar alınmaqdadır. Fermerlərin gübrəyə olan ehtiyacını təmin etmək məqsədilə müvafiq işlər görülmüşdür. Pambıq əkinini də uğurla başa çatdırmışıq.

Hörmətli Prezident, kənd ağsaqqalları Sizi əmin edir ki, taxıl biçinini uğurla başa vurub, bol məhsul əldə edəcəyik. Bu da kəndimizdə əhalinin güzəranının yaxşılaşdırılmasına zəmin yaradacaqdır. Bütün bu işlərin uğurla həyata keçirilməsi üçün kəndin ağsaqqalları Sizə minnətdarlıqlarını bildirirlər".

İsmayıllı rayonundan **Elməddin Seyidov:** "Çox hörmətli cənab Prezident.

Son illərdə ölkəmizdə baş verən hadisələr göstərdi ki, Siz hər bir vətəndaşın dayağı, dar günün dostusunuz. Bizim ailə də bunu öz həyatında gördü. Ötən il Dağlıq Şirvan zonasında baş vermiş zəlzələ nəticəsində evimiz qəzalı vəziyyətə düşmüşdü. Arzu edirəm, o günləri Allah bir də bizə göstərməsin. Öz doğma ocağını dağınıq görmək çox ağır taledir. Belə bir vaxtda biz Sizi yanımızda gördük, böyük təsəlli və sonda nicat tapdıq. Ailəm üçün yeni ev tikilmişdir.

Möhtərəm Prezident, bizi evsiz-eşiksiz qoymadığınız üçün Sizə ailəmin adından minnətdarlığımı bildirirəm. Xudavəndi-aləm ocağınızı gur eləsin, həyatınız daim firavan olsun".

# Türkiyənin IX Prezidenti Süleyman Dəmirəl haqqında kitabın elektron versiyasında Azərbaycan Prezidentinin məqaləsi verilib

Türkiyədə fəaliyyət göstərən "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfi "Süleyman Dəmirələ ərməğan" adlı kitab hazırlayıb.



İLHAM ALİYEV
President of the Republic of Azerbaijan

*In dear memory of the 9th President of the Republic of Turkey Suleyman Demirel*

It is with profound respect and esteem that I honor the memory of the 9th President of the Republic of Turkey, the outstanding statesman and politician - Suleyman Demirel.

Suleyman Demirel dedicated his entire life and work to the prosperity of his homeland. From the second half of the 20th century, he for many years had played an active role in the sociopolitical life of the Republic of Turkey.

My father Heydar Aliyev and Suleyman Demirel shared the ties of close friendship. Their relations started when Heydar Aliyev stood at the helm of the Nakhichevan Autonomous Republic.

On September 3rd, 1991, Heydar Aliyev was elected the Chairman of the Supreme Council of Nakhichevan Autonomous Republic, with the overwhelming support of the people of Nakhichevan. At the time Armenia's aggression against Azerbaijan had been continuing, with Azerbaijan's lands falling under occupation. The military offensive against Nakhichevan was happening as well and Nakhichevan too faced a threat of occupation. Yet Heydar Aliyev managed to overpower the enemy and Nakhichevan was able to secure its borders. Nakhichevan is surrounded by Armenia from three sides and back then it was, in fact, in a blockade. All communications, water, electricity, and gas supply had been disrupted. Thanks to the actions of Heydar Aliyev as the leader of Nakhichevan the former was able to overcome that challenge.

The handover of Zangazur-the historical part of Azerbaijan to Armenia in 1920 had torn the great Turkic world apart geographically. The main territory of Azerbaijan had lost its border with Turkey. The only border section with Turkey lies solely in Nakhichevan.

President of Azerbaijan Ilham Aliyev together with 9th President Süleyman Demirel in Baku

17



Back in Soviet time, the borders were sealed off also and there was no communication. The construction of a bridge between Turkey and Nakhichevan, across the Araz River, was vital. Through joint efforts of Heydar Aliyev and Suleyman Demirel the very bridge was built and named the bridge of "Hope". In late May 1992, Suleyman Demirel, accompanied by a large delegation, made a landmark visit to Nakhichevan and inaugurated the bridge together with Heydar Aliyev.

Our state flag hoisted by the Democratic Republic of Azerbaijan in 1918 came down in 1920 after the downfall of the republic. Heydar Aliyev raised that flag in Nakhichevan again while the Soviet Union had still existed. On November 17th, 1990, at the session of the Supreme Council, under the chairmanship of Heydar Aliyev, the very flag was recognized as the official flag.

The ties of friendship with Suleyman Demirel had grown only stronger after in 1993, Heydar Aliyev returned to power, as demanded by the people of Azerbaijan, and was elected a President. They paid reciprocal visits and maintained constant telephone communication.

"President of Azerbaijan Ilham Aliyev awarded 9th President of Turkey Süleyman Demirel with an Honor Medal On the occasion of his 89th birthday."

I witnessed special ties of friendship between Heydar Aliyev and Suleyman Demirel. Whenever Heydar Aliyev visited Turkey Suleyman Demirel and his spouse Nezmiye would host us at their house.

Those were the years when the solid foundation of Azerbaijan-Turkey relations was laid. Heydar Aliyev's slogan "One nation, two states" had become the primary philosophy of the relations between Azerbaijan and Turkey.

Heydar Aliyev laid the foundation of Azerbaijan's oil strategy, with the interests of the people of Azerbaijan at its core. The Baku-Tbilisi-Ceyhan oil pipeline was an integral component of that strategy. That pipeline became a reality thanks to the courageous actions by Heydar Aliyev under complex geopolitical circumstances. The discussions at the OSCE Istanbul Summit in November 1999 culminated with the signing of "Agreement among the Republic of Azerbaijan, Georgia and the Republic of Turkey relating to the transportation of petroleum via the territories of the Republic of Azerbaijan, Georgia and the Republic of Turkey through the Baku-Tbilisi-Ceyhan Main Export Pipeline". Moreover, the Presidents of Azerbaijan, Georgia, Turkey, Kazakhstan, and the United States had signed the Istanbul Declaration pledging support to that project and its speedy implementation.

18

AZƏRTAC xəbər verir ki, kitabın "Mərmərə Qrupu"nun rəsmi saytında yerləşdirilən elektron versiyasında Ulu Öndər Heydər Əliyev ilə görkəmli dövlət xadimi Süleyman Dəmirəlin dostluq və qardaşlıq münasibətlərindən, türk dünyasının bu iki böyük oğlunun Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərindən bəhs olunur.

Kitabda Azərbaycan Prezidenti İlham Əliyevin "Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəlin əziz xatirəsinə" sərlövhəli məqaləsi də verilib. Məqalədə dövlətimizin başçısı Türkiyənin IX Prezidenti Süleyman Dəmirəlin mənalı həyat yolundan və zəngin dövlətçilik fəaliyyətindən söhbət açır, onun əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir.

Görkəmli dövlət xadimi və siyasətçi Süleyman Dəmirəlin bütün həyat və fəaliyyətini doğma ölkəsinin rifahına həsr etdiyini vurğulayan Prezident İlham Əliyev yazır: "Atam Heydər Əliyev ilə Süleyman Dəmirəli sıx dostluq münasibətləri birləşdirirdi. Onların arasında olan əlaqələr Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının rəhbəri vəzifəsində işləyərkən yaranmışdı... Heydər Əliyevin 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə yenidən hakimiyyətə qayıtmasından və Prezident seçilməsindən sonra onunla Süleyman Dəmirəl arasında dostluq münasibətləri daha da möhkəmləndi. Onlar qarşılıqlı səfərlər edir, daim telefon vasitəsilə əlaqə saxlayırdılar.

Heydər Əliyevin Süleyman Dəmirəllə xüsusi dostluq münasibətlərinin şəxsən şahidi olmuşam. Heydər Əliyev Türkiyəyə səfər edəndə Süleyman Dəmirəl və həyat yoldaşı Nəzmiyə xanım bizi evində qəbul edirdi.

Bu illər ərzində Azərbaycan-Türkiyə əlaqələrinin möhkəm təməli qoyuldu. Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı Azərbaycan-Türkiyə münasibətlərinin hakim fəlsəfəsinə çevrildi".

Azərbaycanın neft strategiyasının təməlinin qoyulmasında və reallaşdırılmasında Ulu Öndər Heydər Əliyevin və Süleyman Dəmirəlin böyük xidmətlərini xatırladan Prezident İlham Əliyev yazır: "1999-cu ilin noyabr ayında ATƏT-in İstanbul Sammiti zamanı aparılmış müzakirələr nəticəsində Heydər Əliyevin, Süleyman Dəmirəlin və digər dövlət başçılarının iştirakı ilə "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Saziş", həmçinin bu layihənin dəstəklənməsi və qısa müddət ərzində həyata keçirilməsi haqqında Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri tərəfindən İstanbul Bəyannaməsi imzalandı.

2002-ci ildə Heydər Əliyevin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyuldu. 2006-cı ildə isə mənim və digər dövlət başçılarının iştirakı ilə neft kəmərinin açılışı oldu. Bu kəmərin reallığa çevrilməsində Süleyman Dəmirəlin siyasi dəstəyi mühüm rol oynadı".

Türkiyənin sabiq Prezidenti Süleyman Dəmirəlin ölkəmizə səfərlərindən, onun Azərbaycanın yüksək dövlət ordenləri ilə mükafatlandırılmasından, "Azərbaycan Respublikasının Fəxri vətəndaşı" adına layiq görülməsindən bəhs edən Prezident İlham Əliyev məqaləsini bu sözlərlə bitirir: "Süleyman Dəmirəlin əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaq".

Kitabda Prezident Rəcəb Tayyib Ərdoğanın Türkiyənin IX Prezidenti Süleyman Dəmirəl barədə xoş sözləri, görkəmli dövlət xadimlərinin, alimlərin, diplomatların məqalələri toplanıb.

"Mərmərə Qrupu"nun saytında qeyd olunur ki, kitab türk və ingilis dillərində nəşr ediləcək.

# İlham Əliyev güclü liderlik nümayiş etdirir



Koronavirus pandemiyası bütün bəşəriyyət üçün təhlükə mənbəyi olaraq qalmaqda davam edir. Virus ölkəmizdən də yan ötməyib, lakin həyata keçirilən səmərəli tədbirlər nəticəsində Azərbaycan koronavirusla mübarizədə ən uğurlu nəticələr əldə edən dövlətlərdən birinə çevrilib. Respublikamızda virusun yayılmasının qarşısının alınması yönündə görülən işlər haqlı olaraq beynəlxalq miqyasda təqdir olunur.

Ən əsası isə odur ki, koronavirus infeksiyası ölkəmizdə qeydə alınan gündən ictimaiyyət Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın problemə çevik və həssas münasibətini gördü. Dövlət başçısı virusla mübarizə tədbirlərinin həyata keçirilməsində əsl liderlik nümunəsi ortaya qoydu, atdığı addımlarla, verdiyi bütün qərarlarla, ilk növbədə, vətəndaşların sağlamlığının prioritet olduğunu göstərdi.

Bu tədbirlər bir daha təsdiqlədi ki, Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində ölkə vətəndaşları dayanır və onun sağlamlığı hər şeydən öndə gəlir. Bir neçə gün əvvəl modul tipli xəstəxananın açılışında Prezident İlham Əliyev bu barədə deyib: "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Bu günə qədər mən hər gün yüzlərlə vətəndaşdan məktub alıram. Bu məktublarda görülmüş işlərə yüksək qiymət verilir".

Respublikamızda koronavirusla mübarizə istiqamətində atılan bütün addımlar ictimaiyyət tərəfindən təqdir olunaraq böyük razılıqla qarşılanır. Ölkənin hər yerindən vətəndaşlar Prezident İlham Əliyevə məktub ünvanlayaraq həyata keçirilən tədbirləri yüksək qiymətləndirir, dövlət başçısına dərin təşəkkürlərini ifadə edirlər.

Beynəlxalq ictimaiyyət, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı da ölkəmizdə atılmış məqsədyönlü, səmərəli və cəsarətli addımlara yüksək qiymət verib. Ona görə də bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açılanda Azərbaycanın adı birincilər cərgəsində gəlir. Çünki fevralın sonlarında respublikamızda virusa ilk yoluxma halı qeydə alınandan operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Virusun qonşu ölkələrdən gəlməsi nəzərə alınaraq yük avtomobillərinin hərəkəti istisna olmaqla, bütün sərhədlərimiz vaxtında bağlanıldı və yalnız Azərbaycan vətəndaşlarının vətənə qayıtmalarına imkan yaradıldı. O cümlədən bütün istiqamətlərə təyyarə uçuşları dayandırıldı. Həmçinin ölkə ərazisində mart ayından sosial izolyasiya tədbirlərinə start verildi. Sonrakı günlərdə izolyasiya tədbirləri genişləndirildi və ölkədə karantin rejimi tətbiq olundu. Bunun nəticəsidir ki, mart və aprel aylarında Azərbaycanda virusa yoluxmada ağır fəsadlar yaranmadı.

Eyni zamanda ölkə ictimaiyyəti koronavirusun sosial-iqtisadi sferaya mənfi təsirlərinin azaldılması istiqamətində də ilk gündən Prezident İlham Əliyevin prinsipial mövqeyini gördü. Dövlət başçısının tapşırığı ilə həm koronavirusla mübarizə, həm aztəminatlı insanların, həm sahibkarların və bütövlükdə, iqtisadiyyatın bu qlobal pandemiya dövründə çətinlik çəkməməsi üçün nə lazımdırsa edildi. Xidmət və digər sahələrdə çalışan yüz minlərlə vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənildi. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edildi. Ödənişli ictimai iş yerlərinin sayı 2 dəfə artırılaraq 90 minə çatdırılacaq. Aprelin 1-dən həm də ünvanlı sosial yardım alan ailələrin sayı 12 min artırıldı. Hər bir belə ailəyə ayda 222 manat ödənilir.

Təbii ki, bu, dövlət üçün böyük xərclər deməkdir. Belə ki, vergi güzəştləri də nəzərə alınsa, indiyədək vətəndaşların sosial rifahı üçün, o cümlədən iqtisadi sferanı əhatə edən dəstək proqramlarının maliyyə tutumu 3,5 milyard manatdan çoxdur. Bütün bunlar - ölkə vətəndaşlarının sağlamlığının təmin olunması üçün atılan addımlar, işsizlərə müavinətlərin verilməsi və digər sosial layihələr, əməkhaqlarının dövlət tərəfindən ödənilməsi, xaricdəki soydaşlarımızın vətənə gətirilmələri, karantin rejimi müddətində aztəminatlı ailələrə və işsizlərə yardım edilməsi Prezidentin öz vətəndaşına diqqət və qayğısının göstəricisidir.

Unutmaq lazım deyil ki, COVID-19 xəstəliyi uzunmüddətli prosesdir. Bu səbəbdən mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi vacibdir. Bu məqsədlə gigiyena qaydalarına daha ciddi riayət olunmalı, karantin rejiminin tələblərinə ciddi əməl edilməlidir. Bu səbəbdən indiki vəziyyətdə hər şey vətəndaşlardan asılıdır. Yəni məhdudiyyətlər götürülsə belə insanlar profilaktik tədbirlərə, sanitar normalara uyğun davranmasa, yoluxma halları çoxala bilər.

Vətəndaşlar ciddiliklə sosial məsafə tələbinə, qoruyucu maskalardan istifadə olunmasına əməl etməlidirlər. Belə olduğu təqdirdə koronavirusun ciddi fəsadlar törətməsinin qarşısı mütləq alınacaq. Mart və aprel aylarındakı vəziyyət də bunu təsdiq edir. İyunun 3-də Prezident İlham Əliyevin Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edərkən maskadan istifadə etməsi də hər birimiz üçün nümunə olmalıdır. Hər bir vətəndaş öz şəxsi məsuliyyətini dərk etməli, Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməlidir.

Reallıq budur ki, Azərbaycan dövləti COVID-19 infeksiyasının qarşısının alınması üçün əlindən gələni edir. Virusa qarşı mübarizə Prezident İlham Əliyevin fəaliyyətində ən prioritet məsələlərdən biridir. Hər bir vətəndaş da bunları nəzərə almalı, xüsusilə məsuliyyətli olmalı, özünü və yaxınlarını qorumalıdır. Vətəndaşın məsuliyyəti həm də onun həmrəylik nümayiş etdirməsi deməkdir. Sərt karantin dövründə Azərbaycan xalqı birlik nümayiş etdirdi. Sağlamlığımız və təhlükəsizliyimiz naminə bu həmrəyliyin bundan sonra da qorunması vacibdir.

***Amil CAVADOV,***
***YAP Gənclər Birliyinin***
***Şura üzvü***

# Bahar Muradovanın İranın Qadın və Ailə Məsələləri üzrə vitse-prezidenti ilə onlayn görüşü olub

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə vitse-prezidenti Məsumə Ebtekar arasında onlayn görüş keçirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, Bahar Muradova Azərbaycan və İran arasındakı münasibətlərin hər zaman qarşılıqlı faydalı əməkdaşlığa və möhkəm dostluğa əsaslandığını, ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət etdiyini vurğulayıb.

Daha sonra komitə sədri Azərbaycanda qadınların dövlət idarəçiliyində təmsilçiliyinə böyük önəm verildiyini, onların dövlət və cəmiyyət həyatına verdikləri töhfələrin çox yüksək dəyərləndirildiyini bildirib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu sahəyə çox böyük diqqət yetirdiyini qeyd edərək əlavə edib ki, qadınların yüksək vəzifələrdə təmsil olunması onların dövlət və ictimai həyatda iştirakçılığının artırılmasına şərait yaradır.

Görüşdə pandemiya dövründə komitə tərəfindən həssas qruplardan olan ailələrlə aparılan sosial-psixoloji iş və maddi yardımların göstərilməsinə dair fəaliyyət haqqında məlumat verilib. Komitə sədri həmçinin qeyd edib ki, bu müddət ərzində ölkə Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün strategiyası"nı təsdiq edib.

2016-cı il 23 fevral tarixində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə Vitse-Prezidentliyi arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumunun icrası ilə bağlı məsələlər də görüşdə müzakirə edilib.

İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə vitse-prezidenti Məsumə Ebtekar sıx əməkdaşlığa görə öz minnətdarlığını ifadə etməklə, birgə fəaliyyət nəticəsində görülmüş işlərin əhəmiyyətini vurğulayıb. Rəhbərlik etdiyi sahədə əldə edilən müsbət təcrübələr haqqında ətraflı məlumat verərək bu barədə azərbaycanlı həmkarları ilə bölüşmək niyyətini də açıqlayıb.

Həmçinin COVID-19 pandemiyası ilə əlaqədar hər iki dövlət tərəfindən görülmüş işlərlə bağlı fikirlərini bölüşən xanım Ebtekar Azərbaycanın COVID-19 ilə bağlı atdığı addımların vacibliyinə toxunaraq digər ölkələrlə yanaşı, onun ölkəsinə də maddi yardım göstərildiyini minnətdarlıq hissi ilə qeyd edib.

Söhbət zamanı Bahar Muradova Azərbaycanın koronavirus pandemiyası ilə mübarizədə uğurlu fəaliyyət göstərən ölkələr siyahısında olduğunu qeyd etməklə fəaliyyətimizin ilk növbədə insanların qorunmasına yönəldiyini vurğulayıb.

Həmçinin bildirilib ki, karantin rejiminin tətbiqi səbəbindən bütün dünyada olduğu kimi, ölkələrimizdə də ailədaxili zorakılıq hallarının artması faktı nəzərə alınaraq risk qrupundan olan ailələrlə iş gücləndirilib. Eyni zamanda, qeyd olunub ki, pandemiya dövrü ailədaxili münasibətlərə müsbət təsirini də göstərib.

Görüş çərçivəsində məişət zorakılığının, qadın və uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması, bütün sahələrdə gender bərabərliyinin təmin edilməsi, qadınların iqtisadi cəhətdən gücləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# REGİONLAR



# Uğurlar tovuzluları yeni nailiyyətlərə ruhlandırır

**İndi kənd təsərrüfatında işlərin qızğın çağıdır. Belə bir vaxtda kəndlinin boş dayanması çəkilən zəhmətin hədər getməsi deməkdir. Odur ki, respublikamızın hansı bölgəsinə getsən, insanların əkin sahələrində işlədiklərinin şahidi olarsan. Belə bir dövrdə yolumuz Tovuz rayonuna düşdü.**



Yolboyu insanların necə işgüzarlıqla işlədiklərini görəndə ürəyimiz dağa dönürdü. Üzüm bağlarında, tütün, tərəvəz və bostan sahələrində böyük canlanma var idi. Baramaçılar da çəkdikləri əziyyətin bəhrəsini görürdülər. Onlar yetişdirdikləri baramanı təhvil verirdilər.

Tovuz Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Emin Eyvazovla elə mərkəzdə görüşdük. Gəlişimizin məqsədini biləndə böyük canfəşanlıqla görülən işləri və qarşıda duran vəzifələri diqqətimizə çatdırdı. İlk sözü də bu oldu ki, bu il kənd təsərrüfatının bütün sahələrində böyük göstəricilərə nail olmaq üçün bütün imkanlarımız var. İlkin göstəricilər bunu deməyə əsas verir. Hazırda zəmilərdə arpa biçini gedir. Kümçülər barama təhvilinə başlamışlar. Tütün sahələrində də işin qızğın çağıdır.

Qeyd edək ki, rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Hər il bu sahədə yüksək göstəricilər əldə edilir. Məsələn, təkcə keçən il rayon üzrə 220 milyon 49 min manat dəyərində kənd təsərrüfatı məhsulları, o cümlədən 50 min 52 ton dənli bitkilər istehsal edilmişdir. Hər hektardan məhsuldarlıq artaraq 32,4 sentner, o cümlədən buğdanın məhsuldarlığı 33 sentner olmuşdur. Taxılçılar bu il də uğurlu göstəricilərə nail olacaqlarına əmindirlər. Bu məqsədlə 2020-ci ilin məhsulu üçün 17381 hektar taxıl əkilmişdir ki, onun da 12753 hektarı buğda, 4528 hektarı isə arpadır. Hazırda rayonda arpa biçini sürətlə davam edir. İlkin nəticələrə görə məhsuldarlıq keçən ilkindən xeyli çoxdur.









Respublikamızda ikinci ən böyük kartof istehsalçısı olan Tovuz rayonunda 158 min 706 ton məhsul istehsal edilmişdir ki, bu da əvvəlki ildəkindən çoxdur. Hər hektardan məhsuldarlıq 33,5 sentner artaraq 250,5-ə yüksəlmişdir. Onu da qeyd edək ki, artıq rayonda bu sahədə çoxlu sayda kartofçuluq təsərrüfatları yaranmışdır. Lakin istehsal olunan kartofun saxlanılmasında mövcud olan çətinliklər bu sahədə bir çox problemlər yaradırdı. Artıq "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq istehsal olunan məhsulun saxlanılması və uyğun vaxtlarda realizasiya olunması məqsədilə 22 min 500 ton tutumu olan soyuducu anbar kompleksinin tikintisinə başlanılmışdır. Logistik mərkəz kimi fəaliyyət göstərəcək bu obyektin tikintisi regionda kartofçuluğun inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir.

Rayonda ən çox gəlir gətirən məhsulların istehsalı da daim diqqət mərkəzindədir. Bu baxımdan istixanaların sayı ildən-ilə artır. Təkcə onu demək kifayətdir ki, artıq rayonda istixanaların sahəsi artırılaraq 38,4 hektara çatdırılmışdır. Sahibkarlar son bir ildə bu istixanalarda 3072 ton məhsul yetişdirmiş, onun satışından 4 milyon 100 min manat gəlir götürmüşlər.

Tərəvəzçilər də uğurların sayını ildən-ilə artırırlar. Keçən il 1329 hektar tərəvəz sahələrindən 28 min 475 ton məhsul götürən rayon sakinləri 3 milyon 629 min manat gəlir əldə etmişlər ki, bu da onları cari ildə daha çox məhsul uğrunda mübarizə aparmağa ruhlandırmışdır.

Tovuz rayonu tarixən üzümçülük rayonu olmuşdur. Lakin sovetlər birliyi dağılan ərəfədə üzümçülüyün sıradan çıxması prosesi getmiş, nəticədə yüz hektarlarla plantasiyalar məhv edilmişdir. Lakin Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra bu gəlirli sahənin yenidən inkişaf etdirilməsi ön plana çəkilmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan üzümünün şöhrəti yenidən qayıtmağa başlamışdır. Dövlət başçısının üzümçülüyün inkişaf etdirilməsi ilə bağlı imzaladığı müvafiq sərəncamlara uyğun olaraq Tovuz rayonunda da çoxsaylı işlər görülmüşdür. Hazırda rayonda 745 hektar üzüm bağı var ki, onun da 20 hektarı keçən il salınmışdır. Bu bağlarda 16 min 283 ton məhsul istehsal edən bağbanlar hər hektardan 245,6 sentner məhsul götürmüşlər ki, bu da əvvəlki ildəkindən 44 sentner çoxdur.

Qeyd edək ki, istehsal olunan üzümün emalı və satışının təşkili istiqamətində də işlər həyata keçirilmişdir. Belə ki, rayonun Aşağı Quşçu kəndində 3 min tonluq üzüm emalı müəssisəsi istifadəyə verilmişdir. Müəssisə keçən il ilk dəfə məhsul qəbul etmişdir. Gələcəkdə həmin müəssisədə alkoqollu içkilər istehsalı və qablaşdırılması üçün hazırlıq işlərinə də başlanılmışdır.

Rayonda kənd təsərrüfatının ənənəvi sahələrindən olan baramaçılığın inkişaf etdirilməsi də diqqət mərkəzindədir. Hazırda kümçülər yetişdirdikləri məhsulu təhvil verirlər. Barama təhvilində əvvəllər olduğu kimi, Bozalqanlı, Yanıqlı, Aşağı Öysüzlü, Düz Cırdaxan və digər kəndlərin sakinləri öndə gedirlər. Onlar iyunun 1-dək "Azəripək" MMC-nin rayondakı qəbul məntəqəsinə 747 kiloqram yüksək keyfiyyətli yaş barama təhvil vermişlər.

Tovuzda tütünçülüyün inkişafı da diqqət mərkəzində saxlanılır. İldən-ilə tütün sahələrini genişləndirən rayon sakinləri hazırda bu sahələrin həcmini 50 hektara çatdırmışlar. İndi plantasiyalarda becərmə işləri uğurla davam etdirilir. Lakin bu ildən etibarən tütünün qurudulması istiqamətində yaranan çətinliklərə də son qoyulacaqdır. Belə ki, rayonda yetişdirilmiş tütün məhsulunun qurudulması üçün hazırda tütün fermentasiya fabrikinin inşasına başlanılmışdır. Tovuzda yığılan yaş tütün yarpağı əvvəllər digər bölgələrə aparılıb təhvil verilirdisə, bu ildən etibarən bu məhsul "Tovuz Aqro Sənaye" MMC-nin nəzdində yaradılan tütün qurutma məntəqəsində yarımfabrikat şəklinə salınacaqdır. Tam avtomatlaşdırılmış müəssisədə Serbiya Respublikasından gətirilmiş 10 ədəd termopilin avadanlığının quraşdırılmasına başlanılmışdır. Müəssisə işə düşdükdən sonra burada 30 nəfər daimi işlə təmin ediləcəkdir.

Rayonda heyvandarlıq məhsulları istehsalı sahəsində də göstəricilər yüksəkdir. Belə ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə bu il ət istehsalı 3,1 faiz, süd istehsalı 10,8 faiz, yumurta istehsalı 2 faiz artmışdır. Hazırda rayonda heyvandarlıqda məhsuldarlığın artırılması və mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində işlər uğurla davam etdirilir.

Qeyd edək ki, Tovuzda həyata keçirilən məqsədyönlü tədbirlər yeni iş yerlərinin açılmasına imkan vermişdir. Təkcə son bir ildə rayonda 2981 yeni iş yeri açılmışdır ki, bundan da 1390-ı daimi olmuşdur. Bundan başqa, 557 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bol məhsullu zəmilər

## Cəlilabadda taxıl biçini sürət götürür



*Əvvəli 1-ci səh.*

Taxılçılıq isə rayonun iqtisadiyyatında həmişə mühüm yer tutmuşdur. Keçən əsrin 50-60-cı illərində Cəlilabadı Azərbaycanın Ukraynası adlandırmışlar. Taxılçılıqda əldə olunan nailiyyətlərə görə neçə-neçə zəhmət adamı o dövrün yüksək mükafatlarına layiq görülmüşdür.

Rayona gəlişimizin budəfəki məqsədi taxıl biçini ilə bağlıdır. Taxılçılarla bilavasitə iş üstündə görüşüb söhbət aparmaq istəyirik. Şabanlı kəndində olmağa qərar verdik.

Şabanlı kənd bələdiyyəsi İnili, Soltanlı, Qasımbəyli, Hacıməmmədli və Mirzətəhməzli kəndlərini də əhatə edir. Bələdiyyə 4 mindən çox əhalini birləşdirir. Əhali əsasən əkinçilik və maldarlıqla məşğuldur.

"Gördüyünüz kimi, rahat yolumuz, bol suyumuz var. Bir neçə il bundan əvvəl Şabanlı və Qasımbəyli kəndlərinə təbii qaz çəkilmişdir. Digər kəndlərimizin də qazlaşdırılması nəzərdə tutulub. Artıq sənədlər hazırdır. Uşaqların təhsil alması, əhalinin sağlamlığının qorunması üçün məktəblərimiz, tibb məntəqələrimiz var. Uzun illər bundan qabaq kəndlərimizə telefon xətti çəkilib, onun vasitəsilə sakinlərimiz internetdən də istifadə edirlər", - deyə bələdiyyə sədri İzahat Ağayev bildirir. Öyrənirik ki, bələdiyyə ərazisində həyətyanı sahələr də daxil olmaqla 1500 hektara yaxın əkilib-becərilən torpaq sahəsi mövcuddur. Bundan 1200 hektara buğda, 100 hektara arpa və qalan 200 hektara isə noxud, mərci, kartof, sarımsaq, qarğıdalı, habelə digər bitkilər əkilmişdir.





Kənddə olarkən burada 3 taxılbiçən kombaynın işlədiyini gördük. Maşına əyləşib onların yanına yollanırıq. Şabanlı kəndinin taxıl sahələri dağlıq ərazilərdədir. Kəndi ikiyə bölən kiçik çaydan keçib Səlim Şabıyevin məhsulu biçilən zəmiyə tərəf gedirik. Hündür təpənin başında kombayn görünür. Torpaq mülkiyyətçisinə yaxınlaşıb hal-əhval tutub görüşürük. "Məhsulunuz bol olsun!" - deyirik. S.Şabıyevdən hektarın məhsuldarlığını soruşuruq.

O, razılığını bildirir: "Allah bərəkət versin. Bu il qış qarsız keçdi. Qar da ki, özünüz bilirsiniz, taxılın yorğanıdır. Ancaq naşükür deyilik. Sağ olsun dövlətimiz, bizə hər cür qayğı-diqqət göstərir. Yazda yemləmə gübrəsi verdik, üstünə də yağış yağdı. Dövlətin köməyi, Tanrının mərhəməti sayəsində, özünüz də görürsünüz, yaxşı məhsul yetişib". Bu vaxt "Niva" kombaynının işığı yanır. Bu, bunker doldu deməkdir. Kombaynçı Nicat Abıyevlə də görüşüb söhbət aparırıq. Dağlıq ərazidə iş günü ərzində 9-10 hektar sahənin məhsulunu biçdiyini bildirir.

Qeyd edək ki, cari ilin məhsulu üçün keçən ilin payızında Cəlilabadda 59 min 587 hektara taxıl əkilmişdir. Bunun 54 min 779 hektarı buğda, 4 min 808 hektarı isə arpadır. Arpa biçini artıq başa çatdırılmışdır.

Biz rayonda olarkən seçmə yolu ilə buğda biçininə başlanmışdı. Mütəxəssislər dedilər ki, bir-iki günə kütləvi şəkildə buğda biçini də aparılacaq. Buna görə də Cəlilabaddan məhsulu daha tez yetişən rayonlara köməyə gedən kombaynlar artıq geriyə - rayona qayıdır. Hazırda Cəlilabadda 130 kombayn, bir o qədər yükünü özüboşaldan "KAMAZ" və "Şadman" markalı maşınlar işləyir. Məhsul toplanışını tez, itkisiz başa vurmaq məqsədilə yığımdan əvvəl Rayon Aqrar İnkişaf Mərkəzində kombaynçıların, mütəxəssislərin, digər əlaqədar təşkilatların nümayəndələri ilə seminar-müşavirə keçirilmiş, biçinlə bağlı hazırlanan tədbirlər planı təsdiq edilmişdir.

Elin əvəzsiz neməti olan taxılın vaxtında, itkisiz yığılması üçün rayonda bütün qüvvələr səfərbər olunmuşdur. Onlar səhərlər zəmilərin şehi götürülən kimi yorulmaq bilmədən sünbül dolu zəmilərin məhsulunu yığmağa çalışırlar. Beləliklə məhsul, çörək bolluğu yaradırlar. Çörəyin bol olması isə ölkəmiz üçün çox vacib məsələlərdəndir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



# Liman şəhərində küçələr abadlaşır

**Koronavirus pandemiyasının çətinliklərinə baxmayaraq, Lənkəran şəhəri ilə yanaşı rayonun ayrı-ayrı yaşayış məntəqələrində də abadlıq-quruculuq işləri davam etdirilir, infrastruktur yaxşılaşdırılır. Davamlı olaraq həyata keçirilən abadlıq və mədəni quruculuq işləri rayonun Liman şəhərinin də görkəmini xeyli dəyişmişdir.**

Şəhərdə küçə və səkilər, suötürücü kanallar müntəzəm olaraq təmizlənir, dezinfeksiya olunur, barı və hasarlar suvaqlanaraq rənglənir, yaşıllaşdırma işləri aparılır. Bu günlərdə şəhərin əsas küçələrindən biri olan R.Rza küçəsi asfaltlanıb, ərazidə xeyli səliqə-sahman işləri görülüb. Bu işlərlə tanış olmaq üçün R.Rza küçəsinə baş çəkən icra başçısı T.Qaraşov sakinlərlə görüşüb. Onlar göstərilən diqqət və qayğıya, xüsusilə karantin dövründə imkansız ailələrə, həssas qrupa aid vətəndaşlara dövlət tərəfindən və Heydər Əliyev Fondunun xəttilə göstərilən maddi və mənəvi dəstəyə görə ölkə Prezidentinə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq ifadə ediblər. Yaşadıqları R.Rza küçəsinin uzun illərdən sonra əsaslı şəkildə təmir olunub yenidən asfaltlanmasından məmnun olduqlarını bildiriblər.

Sakinlərlə söhbət edən icra başçısı onların qayğıları ilə maraqlanmaqla yanaşı, koronavirus pandemiyası ilə əlaqədar rayonda elan olunmuş karantin rejiminin tələblərinə əməl olunmasının vacibliyini, hər bir sakinin tibbi qoruyucu vasitələrdən, maska və digər ləvazimatlardan istifadəsinin zəruriliyini, özünü, doğmalarını və qohum-qonşularını dəhşətli bəladan mühafizə etməyə, sağlamlıqlarını qorumağa borclu olduqlarını



xatırladıb. Ölkə Prezidentinin səfərləri və görüşləri zamanı şəxsən qoruyucu maskadan istifadə etməsini ən gözəl nümunə kimi xüsusi vurğulayan icra başçısı hamını bu nümunədən ibrətamiz şəkildə bəhrələnməyə, qapalı guşələrdə, marketlərdə, iaşə və ticarət obyektlərində, ictimai nəqliyyatda mütləq şəkildə tibbi maskalardan istifadə etməyə çağırmışdır.

***"Azərbaycan"***

# Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı üzvüdür

## İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz pandemiyaya qarşı qlobal miqyasda mübarizə aparır

**Bəşəriyyət koronavirus - COVID-19 adlı mərəzin əsirinə çevrilib, yarım ildir ki, bu bəladan qurtulmaq üçün yollar axtarır, dərman tapmağa çalışır. Hələliksə bunların heç birinə nail olunmayıb və koronavirus sürətlə yayılaraq dünyada 8 milyondan çox insana yoluxub, 446 mindən artıq can alıb.**

Nə yazıq ki, bu statistika artan tendensiya ilə davam edir. Amma yayıldığı ilk zamanlarda onu ciddiyə almayan, dərhal təhlükəsizlik tədbirləri görməyən, sosial izolyasiya qaydalarını tətbiq etməyən ölkələrə qarşı daha amansız oldu. Hazırda bütün ölkələrdə peyvənd hazırlanana qədər bu virusa yoluxmamaq və ondan qorunmaq üçün çıxış yolları axtarılır.

### Pandemiyanın ən kəskin günlərində dövlət başçısı xalqın yanında oldu

Virusun üzə çıxdığı ilk zamanlardan etibarən Azərbaycan bu gözəgörünməz düşmənlə mübarizəyə atıldı.

Prezident İlham Əliyevin birbaşa nəzarəti ilə həyata keçirilən çevik və effektiv tədbirlər ölkəmizdə koronavirusla mübarizədə müsbət nailiyyətlər əldə edilməsinə rəvac verdi. Pandemiyanın ən kəskin günlərində də dövlət başçısı xalqın yanında oldu, problemlərinin həlli istiqamətində mühüm tapşırıqlar verdi. Bu dövrdə müxtəlif açılışlarda iştirak etdi, bölgələrə səfərlər edib vətəndaşlarla görüşdü.

Dövlət başçısı COVID-19 pandemiyası zamanı böyük fədakarlıq göstərərək, insanların maddi ehtiyaclarının ödənilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində uğurlu işlərə imza atdı. Prezidentin rəhbərliyi altında nail olduğumuz bütün bu müsbət göstəricilər qlobal pandemiyaya qarşı digər ölkələrlə müqayisədə daha yaxşı statistika ortaya qoymağımıza səbəb oldu.

Azərbaycan vətəndaşının sağlamlığı və təhlükəsizliyi hər zaman dövlət siyasətinin əsas prioritetini təşkil edib. İyunun 9-da modul tipli xəstəxanaların açılışı zamanı İlham Əliyev bir daha vurğulamışdı ki, görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır: "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Bu günə qədər mən hər gün yüzlərlə vətəndaşdan məktub alıram. Bu məktublarda görülmüş işlərə yüksək qiymət verilir. Bu məktubların çox kiçik bir hissəsi mətbuatda dərc edilir. Ancaq o məktublar göstərir ki, bütün rayonlardan, bütün kateqoriyalara aid olan insanlardan bu məktublar gəlir və insanlar minnətdarlıqlarını bildirirlər. Eyni zamanda məhdudlaşdırıcı dövr ərzində çətin vəziyyətə düşmüş vətəndaşların maddi məsələləri də həll olunubdur və Azərbaycan burada da liderlik göstəribdir".

### Qlobal səviyyədə liderlik təşəbbüsü

Azərbaycan beynəlxalq səviyyədə də koronavirusla mübarizəyə dəstək verən ilk ölkələrdən oldu. Dövlətimiz qlobal böhranın aradan qaldırılması istiqamətində ehtiyacı olan xeyli ölkəyə maddi-texniki yardım edib, kömək əlini uzadıb, pandemiya ilə mübarizəyə qarşı dünya birliklərinin səylərinin birləşdirilməsinin təşəbbüskarı olub.

Azərbaycan liderlik təşəbbüsü göstərərək, dünyanı COVID-19-la mübarizədə birləşməyə səslədi. Belə ki, ölkə daxilində və beynəlxalq arenada ölkəmizin təşəbbüsü ilə zirvə görüşləri keçirildi. Eyni zamanda ölkəmiz bu aylar ərzində beynəlxalq işgüzar videokonfranslardan da kənarda qalmadı, dünyanın nüfuzlu şirkətləri ilə əməkdaşlıq görüşlərini davam etdirdi.

### "Ölkənizdə pandemiyanın təsirinin kifayət qədər nəzarət altında olduğunu eşitdiyimə şad oldum"

Belə videokonfranslardan biri də iyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevin şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri ilə keçirildi.

Görüş zamanı şirkətin vitse-prezidenti Filip Roq pandemiya zamanı hər kəsin sağlamlığının qorunması üçün gördüyü işlərə görə İlham Əliyevi və hökumətimizi təbrik etdi: "İlk növbədə, deyərdim ki, ölkənizdə pandemiyanın təsirinin kifayət qədər nəzarət altında olduğunu eşitdiyimə şad oldum. Mən dünya liderləri ilə əlaqə saxladığımdan bu, heç də həmişə belə olmur. Nəhayət, bilirsiniz ki, texnologiya və gördüyümüz bütün işlərdən başqa, insan sağlamlığı və insan həyatı bizim üçün prioritet təşkil edir. Hər kəsin sağlamlığının qorunması üçün gördüyünüz işlərə görə Sizi və hökumətinizi təbrik edirik. Lakin pandemiya heç də fərq qoymur. Ona görə də biz ehtiyatlı olmalıyıq".









### "Vəziyyət nəzarət altındadır"

Prezident İlham Əliyev Filip Roqun pandemiyanın öhdəsindən gəlməyimizlə bağlı dediyi sözlərə görə ona təşəkkür edərək söylədi ki, həqiqətən də, Azərbaycan bu mühüm məsələnin həllində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə adlandırılıb: "Vəziyyət nəzarət altındadır. Eyni zamanda biz nəinki təkcə daxili məsələlərə diqqət yetiririk, həmçinin qlobal miqyasda da fəaliyyət göstəririk. Azərbaycan artıq 29 ölkəyə humanitar yardım göstərib və bu proses davam edir. Biz özümüzü beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi nümayiş etdiririk".

Prezident onu da qeyd etdi ki, fəaliyyətimiz və gələcək planlarımıza gəlincə, əlbəttə ki, əsas diqqəti insanların koronavirusdan qorunmasına yönəltdik və bunun bizim iqtisadi artımımıza çox mənfi təsir göstərəcəyini aydın şəkildə başa düşürük: "Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi beş ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın - təxminən 1,7 faiz azalmanın olduğunu göstərir. Lakin, eyni zamanda iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb. Bu səbəbdən bu gün biz məhdudiyyət tədbirlərini uzlaşdırırıq, çünki COVID-19 hələ də mövcuddur. Eyni zamanda biz ölkəmizi açmağa və həyatımızın müxtəlif sahələrinin fəaliyyətini bərpa etməyə başlayırıq. Beləliklə, ümidvaram ki, bu balanslaşdırılmış yanaşma bizə, ilk növbədə, pandemiyaya qarşı uğurlu mübarizəni davam etdirməyə kömək edəcək. Eyni zamanda biz özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik".

### "Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik"

Dövlət başçısı "Microsoft" şirkəti ilə gələcək əməkdaşlığa dair fikirlərini də bildirdi: "İki il bundan əvvəl Bakıda keçirdiyimiz görüşdən sonra əməkdaşlığımıza gəlincə, bildiyiniz kimi, biz razılaşma imzalamışdıq. Görüşümüzdən əvvəl mənə məlumat verildi ki, on minlərlə lisenziya verilib və bu məsələ hazırda uğurla davam etdirilir. Bizim piratçılığa qarşı birgə səylərimiz yaxşı nəticələr verir. Gələcək planlarımıza gəlincə, bəlkə də bilirsiniz ki, hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək. Həmçinin pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq. Baxmayaraq ki, mövcud vəziyyətə özümüzü uyğunlaşdırmaq üçün bizim çox vaxtımız olmadı, lakin müəyyən addımlar atılmışdır. Çünki bizim məktəb və universitetlərimiz mart ayından bəri bağlanıb. Biz sentyabrın 15-dən başlayacaq yeni tədris ilinə hazırlaşmalıyıq. Həmin zaman pandemiya ilə bağlı vəziyyətin necə olacağını bilmirik, məktəb və universitetləri aça biləcəyimizi bilmirik, ona görə də biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq. Əgər problem davam edirsə və getdikcə pisləşirsə, o zaman biz bu barədə düşünməli olacağıq. Lakin indi bu barədə düşünmək lazımdır. Həmçinin distant işlə bağlı məsələlər... Bu da ölkə üçün olduqca vacibdir. Təxminən bunlar bizim planlarımızda diqqətimizi cəmlədiyimiz sahələrdir".

### Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir

Prezident İlham Əliyev onu da qeyd etdi ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir: "Bu dəfə Davos İqtisadi Forumu zamanı cənab Borge Brende və mən Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənədi imzaladıq. Beləliklə, bu mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələrini də əhatə edəcək. Buna görə düşünürəm ki, bizim üçün daha da irəliləmək və sizinlə innovasiya mərkəzi üzərində çalışmaq təbii olardı. Bizim əsas strategiyamız sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Buna görə düşünürəm ki, bu məsələ üzərində birgə çalışmağımız əməkdaşlığımızı gücləndirə bilər".

Filip Roq isə, öz növbəsində, bildirdi ki, Bakıya qayıtmağı səbirsizliklə gözləyirlər: "Biz hamımız gələcək imkanları səbirsizliklə gözləyirik və işi davam etdirmək əzmində olan komanda kimi bilirik ki, çoxlu imkanlar var. Hər şeydən əvvəl, biz Bakıya qayıtmağı həqiqətən də səbirsizliklə gözləyirik".

Şirkətin vitse-prezidenti onu da vurğuladı ki, investisiya yatırılmasının davam etdirilməsində və sabahın transformasiyası üçün yol xəritəsinin yaradılmasında şirkətin yardımına hər zaman arxalanmaq olar: "Biz Sizin sərəncamınızdayıq və bizim imkanlardan məqsədəuyğun saydığınız kimi istifadə edin. Biz Sizin üçün buradayıq".

Elə bu videokonfrans əsnasında səsləndirilən fikirlər də onu deməyə əsas verir ki, Azərbaycan dövləti qlobal pandemiya dövründə də genişmiqyaslı və bütün sahələrin inkişafı üzrə həyata keçirdiyi işlərini davam etdirməkdədir. Əminliklə demək olar ki, dövlət başçısının rəhbərliyi altında reallaşan bütün bu effektiv tədbirlər, gələcəyə yönəlik planlar və irimiqyaslı layihələr sayəsində ölkəmiz postpandemiya dövründə də sosial-iqtisadi cəhətdən böyük problemlərlə üzləşməyəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Çimərlik mövsümü yeni qaydalarla açılır

## TƏBİB-dən dənizə getmək istəyənlər üçün metodiki göstərişlər

Yeni növ koronavirus, COVID-19 planetimizdə tüğyan etməkdədir. Artıq dünyada bu ölümcül virusa yoluxanların sayı 8 milyonu ötüb.

Azərbaycanda da dövlətin bütün potensialı bu infeksiya ilə mübarizəyə yönəlib və yanvar ayından başlayaraq lazımi tədbirlər həyata keçirilir. Dövlətimiz bütün imkanlarını virusun yayılmasının qarşısının alınmasına və onun fəsadlarının aradan qaldırılmasına səfərbər edib. Lakin ölkədə xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yeni yoluxma hallarının sayı artmaqdadır. Elə bu səbəbdən də mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilərək, son günlərdə virusa yoluxma sayı, xəstəliyin yayılma dinamikası nəzərə alınaraq, ölkə üzrə xüsusi karantin rejiminin iyulun 1-dək uzadılmasına qərar verildi. Eyni zamanda infeksiyanın geniş yayılmasının qarşısının alınması üzrə həyata keçirilən tədbirlər çərçivəsində dövlət sərhədində giriş-çıxışa müvəqqəti olaraq tətbiq edilən məhdudiyyətin və beynəlxalq uçuşların təxirə salınmasının müddəti artırıldı. COVID-19 pandemiyası ilə bağlı dünyadakı vəziyyət təhlil edilərək yükdaşımaları və çarter reysləri istisna olmaqla, Azərbaycan ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət iyulun 1-dək uzadıldı.

Eyni zamanda iyunun 14-ü saat 00:00-dan iyunun 16-sı saat 06:00-a qədər Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində növbəti dəfə sərtləşdirilmiş karantin rejimi tətbiq olundu. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, bu müddətdə sadalanan şəhər və rayonlarda bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, həmçinin ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırıldı. Əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edildi. Bununla belə, məsuliyyətsizlik edərək xüsusi karantin rejimini pozanlar da oldu. Hətta Qaradağ rayonu Səngəçal qəsəbəsində sərt karantin qaydalarını pozaraq çimərliyə gedən 8 nəfər müəyyən edildi. Qaradağ Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılan həmin şəxslər İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cəzalandırıldılar.

### Pandemiya dövründə çimərlik və su istirahət mərkəzlərində iş rejimi

Məlumat üçün bildirək ki, iyunun 15-dən ölkədə çimərlik mövsümünə start verilib.

Ancaq əvvəlki illərdən fərqli olaraq, bu il çimərlik və su istirahət mərkəzləri yeni qaydalar əsasında fəaliyyət göstərəcəklər. Bu məkanlarda iş rejimi pandemiya dövründə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçiriləcəkdir. Odur ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) çimərlik və su istirahət mərkəzlərində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişləri artıq təsdiqlənib.

Obyekt sahibləri, işçi heyəti, vətəndaşlar bu qaydalara mütləq şəkildə riayət etməlidirlər. Metodiki göstərişdə bildirilir ki, sənəd çimərliklər, üzgüçülük hovuzları və akvaparklarda əməkdaşların və vətəndaşların sağlamlığının qorunması məqsədi ilə hazırda koronavirus (COVID-19) infeksiyasına dair aparılan elmi araşdırma faktlarına əsaslanaraq tərtib olunub.

### Ümumi göstərişlər

Metodik vəsaitdə qeyd olunur ki, üzgüçülük hovuzları və akvaparkların girişlərində termometriya təmin edilməlidir. Simptomu olanlar üzgüçülük hovuzlarına və akvaparklara buraxılmamalıdır.

Fiziki məsafənin qorunması məqsədilə çətirlərin oxlarının arasında minimal məsafə 4 m, insanlar arasındakı fiziki məsafə 2 m (ailə üzvləri istisna olmaqla) olmalıdır. Mümkün olan ərazilərdə, döşəmədə işarələr yerləşdirilməlidir. Sanitar məişət otaqları (sanitar qovşaq, soyunub-geyinmə otağı və s.) sanitar-gigiyenik qaydalara uyğun, işlək və təmiz vəziyyətdə saxlanmalı, dezinfeksiyanın tezliyi artırılmalıdır. Hovuzlarda suyun tərkibindəki dezinfeksiyaedici vasitələrin konsentrasiyası beynəlxalq norma və standartlara uyğun olaraq tövsiyə edilən yuxarı hədlərdə saxlanmalıdır. Vətəndaşların təmasda olduğu əşya və səthlər mütəmadi dezinfeksiya edilməlidir. Təmizlik vasitələri və dezinfeksiyaedici maddələr fasiləsiz təmin olunmalıdır. Hovuz və akvaparkların ərazilərinin əl dezinfektantları üçün nəzərdə tutulmuş dispenserlərlə, hovuz və akvaparkların əməkdaşlarının yetərli sayda tibbi maska və əlcəklərlə (su ilə təmasda olmayan zəruri sahələrdə) təminatına nəzarət edilməlidir.

İstifadə edilmiş tibbi maskaların atılması üçün ayrıca qapalı torbalar qoyulmalı və bu tullantılar müvafiq qaydada məhv edilməlidir.

Növbə ilə çalışan əməkdaşlar eyni heyətdə işləməli və rotasiya edilməməlidirlər. İşçi heyət mütəmadi olaraq maarifləndirilməli, həmçinin infeksiyanın yayılmasının qarşısının alınması ilə bağlı ən son məlumatlara sahib olmalıdır.

Qapalı zallar və otaqlar mütəmadi havalandırılmalıdır. Tullantılar vaxtında kənarlaşdırılmalı, tullantı qabları təmiz saxlanılmalıdır. Vətəndaşların səhhətində yaranan problemlər (COVID-19-a spesifik olan simptomlar - qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) tibb məntəqəsinin əməkdaşlarına bildirilməlidir.

### Təmizlik və dezinfeksiya işləri

Çimərlik və su istirahət mərkəzlərində həyata keçirilən təmizlik-dezinfeksiya işləri xidmətin növü, təmasda olunan səthlərin xüsusiyyətləri, təmizlik-dezinfeksiya qaydaları nəzərə alınmaqla və müxtəlif təmizlik vasitələrindən istifadə etməklə aparılır. Təmizlik-dezinfeksiya işləri iş saatı ərzində mütəmadi olaraq, əsasən, işlək sahələrdə iş saatlarından sonra isə bütün sahələrdə həyata keçirilməlidir. Bu zaman aşağıdakı ardıcıllığa riayət edilməlidir:

- Mexaniki təmizlik: quru çirklər və tullantılar səthlərdən və məkandan uzaqlaşdırılır;
- Təmizləmə: isti su və lazımi hallarda yuyucu vasitələrdən istifadə etməklə həyata keçirilir;
- Durulama: istifadə edilmiş yuyucu vasitə qalıqlarının səthdən tamamilə uzaqlaşdırılması məqsədilə isti sudan istifadə edilir;
- Dezinfeksiya: istifadəsinə icazə verilən dezinfeksiyaedici maddələr istifadə təlimatına uyğun olaraq tətbiq edilir.

Dezinfeksiyaedici maddələrdən istifadə zamanı diqqət yetirilməli məqamlar:

- İstifadə təlimatında qeyd edilmiş yararlılıq müddəti və istifadə qaydası mütləq nəzərə alınmalıdır;
- Lazım olan konsentrasiyadan (qatılıq) artıq istifadə edilməməlidir;
- Digər şəxslərin yanlış istifadəsinin qarşısını almaq məqsədilə dezinfeksiyaedici məhlul hazırlandıqdan sonra qablaşdırma üzərində tərkibi və hazırlanma tarixi barədə qeyd yazılmalıdır;
- Dezinfeksiya işlərinin aparılması tezliyi planlaşdırılmalıdır;
- Dezinfeksiya işlərini həyata keçirən işçi heyət xüsusi qoruyucu vasitələrlə (əlcək, maska və s.) mütləq təmin edilməlidir;
- Dezinfeksiya işlərinin həyata keçirildiyi sahə bu işlər başa çatdıqdan sonra havalandırılmalıdır;
- Dezinfeksiyaedici maddələrin istifadə təlimatında qeyd edilən səth üzərində tövsiyə olunan qalma müddətinə ciddi riayət edilməlidir.

Dezinfeksiya edilməsi vacib olan sahələr və tövsiyə edilən dezinfeksiya maddələri:

- Giriş-çıxışlardakı ayaqaltlıqlar (xlor tərkibli məhlul və ya digər);
- Qapı və qapı tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- Vətəndaşların şəxsi əşyalarının saxlanılması üçün nəzərdə tutulan dolablar və onların tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- Döşəmələr (xlor tərkibli məhlul və ya digər);
- Vətəndaşların toxunduğu səthlər (spirt tərkibli məhlul və ya digər);
- Soyuducuların tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- Soyunub-geyinmə otaqları (xlor tərkibli məhlul və ya digər);
- Sanitar qovşaqları (xlor tərkibli məhlul və ya digər);
- Anbarlar (xlor tərkibli məhlul və ya digər);
- Tullantıların yığıldığı sahələr (xlor tərkibli məhlul və ya digər);
- Tullantı qabları (spirt tərkibli məhlul və ya digər);
- Ödəniş terminalları (spirt tərkibli məhlul və ya digər).

### İşçi heyətin şəxsi gigiyenası və müayinəsi

İşə başlamazdan, tullantılarla təmasdan, təmizlik işlərindən, sanitar qovşaqdan istifadədən, asqırma və öskürmədən, pulla təmasdan, siqaret çəkdikdən sonra işçi əllərini təmiz yumalı və ya dezinfeksiya etməlidir. İş zamanı özündə COVID-19-a spesifik olan əlamətlər (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) hiss edən işçi dərhal işini dayandırmalı, tibbi maska ilə təmin olunaraq qapalı otaqda izolyasiya edilməlidir. Həmin şəxsə tibbi xidmətin göstərilməsi üçün 103 - TTTY-ə müraciət edilməlidir;

- Xəstəlik əlaməti olan işçinin iş yeri dezinfeksiya edilməlidir;
- Həmin işçidə laborator üsul ilə COVID-19 təsdiqləndiyi halda, onunla sıx təmasda olan əməkdaşlardan test götürülməli və cavabları aşkarlanana qədər onlar evdə izolyasiya olunmalıdır.

### Tibbi maskalardan ümumi istifadə qaydaları

Maskalar ağız və burun nahiyəsini səliqəli örtməklə, üz və maska arasındakı boşluqları minimuma endirmək şərtilə taxılmalıdır. Maska çıxarılan zaman müvafiq texnikaya əməl edilməlidir (maskanın ön hissəsinə toxunmaq olmaz, arxa hissəsindəki ipləri vasitəsilə çıxarılmalıdır). Maskanı çıxardıqdan sonra əllər spirtlə təmizlənməli, yaxud sabun və su ilə təmiz yuyulmalıdır. Maska çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməsi vacibdir. Birdəfəlik maskalardan təkrar istifadə etmək olmaz. Birdəfəlik maskaların istifadəsindən sonra onların zərərsizləşdirilməsi və kənarlaşdırılması zəruridir.

Əllərin gigiyenasına dair tövsiyələr:

- Əllər axar su ilə isladılmalı və sabunla sürtülməlidir;
- Əllər sabunla birlikdə ovuşdurulmalıdır. Barmaqların və dırnaqların arası yaxşı sabunlanmalıdır;
- Sabunlu əllər ən azı 20 saniyə ovuşdurulmalıdır;
- Əllər axar suyun altında mükəmməl durulanmalıdır;
- Əllər təmiz salfetlərlə qurulanmalıdır;
- Sabun və ya su istifadəsi mümkün olmadıqda, etanol (spirt) tərkibli dezinfeksiyaedici məhlullardan istifadə edilməlidir.

### Çimərliklərdə növbənin tənzimlənməsi üçün yeni sistem qurulur

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində bildirmişdir ki, çimərliklərdə növbənin tənzimlənməsi üçün "ASAN xidmət" və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yeni sistem qurulur. Vətəndaş getmək istədiyi çimərliyi qabaqcadan seçməklə növbəsini tutacaq. Bununla da çimərliyin qəbul edə biləcəyi sayda insana icazə veriləcək. Əgər çimərlik dolarsa, buna icazə verilməyəcək. Sistem Bakı Şəhər İcra Hakimiyyətinin təqdim etdiyi çimərliklərin siyahısı əsasında fəaliyyət göstərəcək.

Sadalanan tövsiyələrə riayət etmək hər kəsin sağlamlığı naminə mütləq və zəruridir. Hər bir şəxs sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da bu fəaliyyətə dəvət etməlidir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Bakuvinin "Dua məcmuəsi" kitabı İlahiyyat İnstitutuna hədiyyə edilib

Görkəmli Azərbaycanlı təfsir alimi Mir Məhəmməd Kərim Bakuvinin "Dua məcmuəsi" kitabı Azərbaycan İlahiyyat İnstitutuna (AİI) hədiyyə edilib.



"Dua məcmuəsi" kitabında salavatın növləri, xüsusi seçilmiş dualar və zikr növləri toplanıb. Kitab AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin müdiri, AİI-nin müəllimi, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı tərəfindən instituta təqdim olunub. Qeyd edək ki, sözügedən kitabı M.Babaşlıya alimin qızı Əliyyə xanım bağışlayıb.

Xatırladaq ki, son illərdə Bakuvinin həyat və yaradıcılığı tədqiqatçılarımız tərəfindən araşdırılır. Repressiya qurbanına çevrilmiş alimin əlyazmalarının böyük hissəsinin aqibətinin naməlum olmasına baxmayaraq, Mir Məhəmməd Kərim Bakuvinin kitabxanasına aid bəzi kitabların bir qismi arxivlərdə qorunub saxlanılır.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda dini-elmi əlyazmaların toplanması və tədqiqi ilə bağlı bir sıra işlər görülür. Bu dəyərli əlyazma da AİI-nin silsilə nəşrləri arasında çap edilmək məqsədilə İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov tərəfindən araşdırılır.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

# İlahiyyat İnstitutunda doktoranturaya ilk dəfə qəbul keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) doktoranturaya ilk dəfə qəbul həyata keçirilib.




Doktoranturaya keçirilən qəbul imtahanlarında fəlsəfə doktoru proqramı üzrə instituta iki nəfər qəbul olunub: Dinşünaslıq ixtisası üzrə əyani doktoranturaya bir nəfər, Dinin tarixi və fəlsəfəsi ixtisası üzrə əyani doktoranturaya bir nəfər.

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04.12.2019-cu il tarixli 737s nömrəli sərəncamı ilə institutun 2019-cu il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01.07.2010-cu il tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na əsasən, yüksəkixtisaslı elmi kadrların hazırlanması məqsədilə Azərbaycan İlahiyyat İnstitutunda fəlsəfə doktoru proqramı üzrə doktoranturaya əyani təhsilalma formasını həyata keçirmək, həmçinin dissertantlıq yolu ilə reallaşdırmaq üçün sənəd qəbulu elan olunmuşdur.

Məlumat üçün bildirək ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli sərəncamına əsasən, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmışdır. AİI-də bakalavr, magistratura və doktorantura səviyyələri üzrə qəbul həyata keçirilir. Qeyd edək ki, 2020-2021-ci tədris ili üçün bakalavr səviyyəsi üzrə əcnəbi tələbələrin qəbulu da nəzərdə tutulur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# *Baş Prokurorluq:* KİVDF-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı cinayət işi başlanıb

Ölkəmizdə uğurla həyata keçirilən davamlı iqtisadi inkişaf siyasətinin mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, aparılan islahatlarla korrupsiyaya qarşı mübarizə tədbirlərinin dəstəklənməsi daim diqqət mərkəzində saxlanılır.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, prokurorluq orqanları tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə büdcə və digər maliyyə vəsaitlərinin səmərəli və təyinatı üzrə istifadə olunması sahəsində dövlət nəzarətinin səmərəliliyinin artırılması və bu sahədə korrupsiya hüquqpozmalarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi davam etdirilir.

Həmin tədbirlərin davamı kimi, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən yol verilən qanunsuzluqlar barədə Azərbaycan Respublikasının Hesablama Palatasından daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Araşdırma zamanı fondun vəzifəli şəxsləri tərəfindən dövlət satınalmaları haqqında qanunvericiliyin tələblərinə əməl edilməməsi, vəsaitlərin təyinatı üzrə istifadə olunmaması, tikinti norma və qaydalarının pozulması, kütləvi informasiya vasitələrinə yardımların qanunsuz verilməsinə əsaslı şübhələr müəyyən edilib. Belə ki, daxil olmuş materiala əsasən, fondun "Xərclər smetası"nın icrasına, KİV-in fəaliyyətinin təkmilləşdirilməsini nəzərdə tutan və inkişafını dəstəkləyən proqram, layihə və digər tədbirlərin maliyyələşdirilməsinə, habelə fondun saxlanılması xərcləri üzrə inzibati binanın müvafiq satınalma keçirilmədən icarəyə götürülməsi və nəqliyyat vasitələrinin təmiri və yanacaqla təmin edilməsinə, KİV-ə maliyyə yardımının və gündəlik ictimai-siyasi qəzetlərə birdəfəlik maliyyə yardımının ayrılmasına, tikinti norma və qaydalarına əməl edilməməsi nəticəsində iş həcmlərinin artırılması, obyektin ehtimal dəyərinin şişirdilməsi və işlərin görülməməsinə görə külli miqdarda artıq vəsait qanunsuz olaraq xərclənib.

Qeyd olunan qanunsuz əməllərə görə Cinayət Məcəlləsinin 179.4-cü (külli miqdarda mənimsəmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 308-1.2-ci (külli miqdarda dövlət büdcəsi vəsaitini təyinatı üzrə istifadə etməmə) və 308-2.4-cü (dövlət satınalmalarını qanunsuz keçirmə) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Baş Prokurorluğun məlumatında həmçinin bildirilib ki, jurnalistlər üçün dövlət vəsaiti hesabına inşa edilmiş iki yaşayış binasından mənzilə ehtiyacı olan jurnalistlərə ev verilməsinə maneçilik törədilməsi, həmin evlərin paylanılması qayda və şərtlərinin kobud şəkildə pozulması ilə bağlı daxil olmuş şikayətlər üzrə də hazırda Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırmalar aparılır.

İstintaqın gedişi barədə Baş Prokurorluğun mətbuat xidməti tərəfindən ictimaiyyətə ətraflı məlumat veriləcək.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən qanunazidd hallarla üzləşən jurnalistlərə, eləcə də vətəndaşlara müraciət edərək 961 nömrəli "Çağrı Mərkəzi" və ya Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

# Ermənistanda növbəti diktatura formalaşıb

## Paşinyan hakimiyyətini möhkəmləndirmək üçün siyasi təqibləri artırıb

*Əvvəli 1-ci səh.*

İkinci cinayət işi "Çiçəklənən Ermənistan" Partiyasının 2017-ci il parlament seçkiləri zamanı ehtimal olunan rüşvət vermə halları ilə bağlıdır. Söhbət yüz milyonlarla dramdan gedir. Daha bir cinayət işinə görə partiyanın sədrinə bağlı şirkət qanunsuz olaraq torpaq sahələrini mənimsəyib. Dövlətə 342 milyon dram, təxminən 685 min dollar ziyan dəyib.

Tsarukyan özü hakimiyyətin hərəkətlərini siyasi təqib kimi qiymətləndirir. Ermənistanın "Qraparak" nəşri isə baş verənlərlə bağlı olaraq yazır ki, artıq Ermənistan diktaturadır. Qeyd olunur ki, Milli Təhlükəsizlik Xidməti isə Nikol Paşinyanın əlində siyasi dəyənəkdir: "Ermənistanda parlamentin əksəriyyətini təşkil edən fraksiyanın rəhbərinin rolu həmişə çox böyük olub. Bu gün yalnız kiçik məsələlərdə Ermənistanın baş naziri Nikol Paşinyan ermənilərin rədd etdiyi keçmiş vəzifəli şəxslərdən fərqlənir. Paşinyan bəzi məsələlərdə hətta onları üstələyib. Məsələn, Ermənistanın əvvəlki hakimiyyətləri dövlət büdcəsini "inqilabçı"lar kimi maneəsiz və özbaşına şəkildə xərcləmirdi. Əvvəlkilər bu qədər açıq şəkildə siyasi təqiblər həyata keçirmirdilər, ən azından formal olaraq qanuna əməl edirdilər. Ermənistanda hakimiyyət güc strukturlarını siyasi rəqiblərinə qarşı istifadə etdiyi küt alətə çevirib".

"Çiçəklənən Ermənistan" fraksiyasının deputatı Arman Abovyan isə bildirir ki, inqilab etmiş qüvvə yalan və aldatmaya əsaslanan genişmiqyaslı siyasi təqiblərlə faktiki olaraq öz prinsiplərinə xəyanət etdi. Qeyd edib ki, bu yalan və aldatma onları bir gündə kor və kar olmağa, açıq zorakılığı "görməməyə" və adi insanların səsini "eşitməməyə" məcbur etdi: "Dodaqlarında "insan ən böyük dəyərdir" şüarı olanları ədalət və həqiqəti palçığa atmağa nə məcbur etdi? Deyirlər ki, bütün inqilablar öz övladlarını yeyir, bəlkə də səbəb budur, düzünü desəm, bilmirəm. Qorxmuram və susmayacam".

Ermənistanın "Vətən" Partiyasının sədri, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyan isə bildirir ki, Paşinyanın hakimiyyət dövrü Ermənistan tarixində qeyri-müəyyənlik, təbii dağılma və bədbəxtlik dövrü kimi qalacaq. Qeyd edib ki, hökm sürən hakimiyyətsizlik şəraitində demək olar bütün sahələrdə biabırçı uğursuzluqlar qeydə alınmağa davam edir: "Ancaq mövcud hakimiyyətin uğursuzluqlarından və məhvolmalarından daha vacib məsələ var. Dağılmış iqtisadiyyatı bərpa etmək, məhv olan təhsil və sosial sistemləri yenidən yaratmağa keçmək mümkündür. Yəni Paşinyan tərəfindən məhv edilmiş istənilən sahəni yalnız iradə, idarəetmə qabiliyyəti və düzgün insanların mövcudluğu ilə bərpa etmək mümkündür".

"Vətən" Partiyası Şurasının üzvü Ara Saakyan isə bildirir ki, Ermənistan hakimiyyətinin öz ssenariləri var və bunlar cəmiyyətdə parçalanmanı daha da kəskinləşdirmək adlanır: "Hakimiyyət artıq adekvat anlayış qabiliyyətini itirib və indi ölkədə bir nəfərin hakimiyyəti bərqərar olub. Bu, bizi bir sıra ölkələrin artıq geridə qoyduğu keçmişdəki vəziyyətə qaytaracaq". Onun sözlərinə görə, Tsarukyana qarşı edilən hərəkətlər tamamilə siyasi motivlərlə idarə olunur: "Əgər Qaqik Tsarukyan həbsxanaya salınsa, bu, onun təcrid edilməsi məqsədinə əlavə dəlil olacaq. Müxalifət liderini həbsxanaya göndərmək hər hansı bir dialoq imkanından imtina etmək deməkdir. Hakimiyyət nümayəndələri dialoqdan imtina etdilər, bundan sonra gərginliyin daha da artmasında özləri günahkar olacaqlar".

Bütün bunlar Ermənistanda ictimai-siyasi gərginliyi daha da artırır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan sənaye inqilabı üzrə regional mərkəzə çevrilir

*Əvvəli 1-ci səh.*

Gələcək planlara gəlincə isə videokonfransda bildirilib ki, hazırda Azərbaycanda rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işlənir və bu məsələdə ölkəmizin "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyinə böyük ümid var. Dövlət başçısı bu proqramın növbəti 5 il üçün planlaşdırıldığını deyib: "Eyni zamanda süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək. Həmçinin pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq".

Təhsil mövzusundan bəhs edilərkən F.Roq "Microsoft"un Azərbaycanın təxminən 1 milyon tələbəsi üçün əlaqə qura bildiyini söyləyib. Həmçinin bildirib ki, digər ölkələrdə üzləşdiyi problem evlərdəki qurğuların sayının məhdud olmasıdır: "Anlayıram ki, bu, sizdə problem deyil. Bu isə yaxşı xəbərdir. Çox ölkələr, əslində, yetəri qədər qurğular əldə etmək üçün çətinlik yaşayıblar. Ana, ata və uşaqlar evdədirlər və kompüterdən istifadə uğrunda mübarizə aparılır. Lakin görünür, sizdə bu problem yoxdur və bu, yaxşı xəbərdir".

Filip Roq "Microsoft"un evdən işləmə təcrübəsi barədə də ətraflı məlumat verib. O, bildirib ki, təmsil etdiyi şirkət bir çox ölkələrdə bu cür həll yollarının tətbiqini həyata keçirib və tələb olunan zaman insanların infrastruktura təhlükəsiz çıxışını təmin etmək üçün virtual iş masalarının yaradılması ilə çıxış edib. Kibertəhlükəsizlik məsələsinə toxunaraq isə qeyd edib ki, pandemiya dövründə kiberhücumların sayı artıb və "Microsoft" bu cür hücumların qarşısının alınması istiqamətində geniş iş aparır.

Daha bir yenilik odur ki, "Microsoft"un süni intellekt platforması Azərbaycan dilini də tezliklə dərk edəcək və Azərbaycan dilində tərcümə xidmətinin istifadəyə verilməsini şirkətin özü də səbirsizliklə gözləyir.

Videokonfrans zamanı vurğulandı ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir. Əsas strategiya karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Bu məsələ üzərində çalışmaq "Microsoft"la 15 ildən çoxdur davam edən əməkdaşlığımızı daha da gücləndirəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Beynəlxalq aləm

## ÜST: Deksametazon preparatı effektivdir



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirus infeksiyasına qarşı mübarizədə Böyük Britaniyada deksametazon adlı dərman preparatı ilə aparılan kliniki tədqiqatları həyat qurtaran elmi sıçrayış kimi dəyərləndirib.

Bu tədqiqat çərçivəsində tətbiq edilən deksametazon steroidi ilə COVID-19-a yoluxmuş xəstələrdə ölüm səviyyəsi aşağı salına bilər. Bu preparat artıq süni tənəffüs aparatları vasitəsilə oksigenlə təmin olunan xəstələrdə ölüm hallarının aşağı düşdüyünü elmi şəkildə isbat edən ilk müalicə formasıdır.

ÜST-ün rəhbəri Tedros Adhanom Gebreyesus bu tədqiqatın nəticələrini möhtəşəm yenilik kimi dəyərləndirib və Britaniya hökumətini təbrik edib.

Oksford Universitetinin bir qrup tədqiqatçılarından ibarət heyət hökumətin də maliyyələşdirdiyi tədqiqat çərçivəsində on gün müddətində koronavirusa yoluxmuş iki mindən artıq pasiyenti həmin dərman preparatı ilə müalicə edib. Elmi dairələr tərəfindən hələ rəy verilməyən kliniki tədqiqatın ilkin nəticələrinə əsasən, pasiyentlərin üçdəbir hissəsində ölüm riski aradan qalxıb.

"Recovery" adlı tədqiqat çərçivəsində tədqiqatçılar Böyük Britaniyanın 175 xəstəxanasında 11500 xəstə üzərində müxtəlif dərman preparatlarının kliniki tədqiqatını aparırlar.

## Tramp polisdə islahat haqqında fərman imzalayıb



ABŞ Prezidenti Donald Tramp polis əməkdaşları tərəfindən hüquqazidd əməllərin aşkar edilməsi və departamentlərin bu istiqamətdə fəaliyyətinin stimullaşdırılması tədbirlərinin həyata keçirilməsini nəzərdə tutan fərman imzalayıb.

Tramp bu fərmanın imzalanması barədə bəyanatla Ağ evdə çıxış edərkən polisi tərifləyib və deyib ki, polis təşəkkürə layiqdir. Bununla bərabər, o qeyd edib ki, qanun və qayda bütün ölkədə bərpa olunmalıdır və onun administrasiyası bunun üçün nə mümkündürsə edəcək.

Corc Floydun Minneapolisdə polislər tərəfindən saxlanması zamanı ölümündən sonra artıq iki həftə idi ki, həm demokratlar, həm də respublikaçılar hüquq mühafizə orqanlarının fəaliyyətlərində islahatlar keçirilməsini tələb edirdilər. Prezidentin sözlərinə görə, o, polis ilə münaqişə zamanı həlak olmuş bir neçə insanın ailələri ilə görüşüb. Ağ evin rəhbəri həlak olanların ailələrinə müraciətlə deyib ki, bütün millət onların kədərinə şərikdir.

## Qazaxıstan parlamentinin sədri koronavirusa yoluxub



Qazaxıstan parlamentinin (aşağı palatanın) sədri Nurlan Niqmatulin koronavirusa yoluxub və özünütəcrid rejiminə keçib. Bu barədə parlamentin Mətbuat xidməti məlumat yayıb.

Karantin tədbirlərinə ciddi əməl edən, son ayda plenar iclas günü istisna olmaqla, heç kimlə təmas qurmayan spiker Nurlan Niqmatulin hər plenar iclasdan əvvəl koronavirus testindən keçib. Nurlan Niqmatulin özünütəcrid haqqında qərar qəbul edib.

Hazırda Məclisin sədri fəaliyyətini distant formada davam etdirir.

## Əfqanıstanda təhlükəsizlik qüvvələrinin 12 əməkdaşı həlak olub



Əfqanıstanın şimalında yerləşən Cauzcan əyalətində "Taliban" hərəkatının hücumu nəticəsində təhlükəsizlik qüvvələrinin ən azı 12 əməkdaşı həlak olub, beşi isə yaralanıb. Tolo News telekanalı xəbər verir ki, "Taliban" silahlıları hökumət qüvvələrinin Akça dairəsində yerləşən nəzarət-buraxılış məntəqəsinə hücum edib. Əfqanıstan Müdafiə Nazirliyi hücum nəticəsində altı hərbçinin öldürüldüyünü və üçünün yaralandığını təsdiqləyib və qarşı tərəfin də itki verdiyini bildirib.

Qeyd edək ki, Əfqanıstanda sülh prosesinin başlamasına baxmayaraq, "Taliban" hərəkatı ilə hökumət qüvvələri arasında qarşıdurma davam edir. Fevral ayının sonlarında Qətərdə ABŞ və "Taliban" hərəkatı 18 ildən çox davam edən müharibə ərzində ilk sülh sazişi imzalayıb. Sülh sazişi 14 ay ərzində xarici qüvvələrin ölkədən çıxarılmasını və tərəflər arasında dialoqun başlamasını nəzərdə tutur.

## Çin-Hindistan sərhədindəki toqquşmada ölənlərin sayı 20-yə çatıb



Çin ilə Hindistan arasında sərhəd rolunu oynayan nəzarət xəttində baş verən toqquşmada Hindistan tərəfdən ölən hərbçilərin sayı 20-yə çatıb.

"Hindustan Times" qəzeti xəbər verir ki, ölkənin Ladax bölgəsində, Çin ilə sərhəddə iki dövlətin sərhədçiləri arasında 40 günə yaxındır gərgin vəziyyət müşahidə olunur. Altı saat davam edən toqquşma zamanı tərəflər bir-birinə daş və bərk cisimlər tullayıblar. Bu, tərəflər arasında sərhəd zonasında ilk "daş döyüşü" olmasa da, ölümlə nəticələnən ilk bu cür toqquşmadır. Hadisə zamanı Çin tərəfdən də ölənlərin olduğu bildirilir. Hələlik Çin tərəfi bu barədə açıqlama verməyib.

Hindistan tərəfinin ilk açıqlamasında 3 hərbçinin öldüyü bildirilmişdi. Günün sonuna yaxın verilən açıqlamada yüksək dağlıq ərazidə və soyuq hava şəraitində baş verən toqquşmada ağır yaralanan 17 əsgərin də öldüyü qeyd olunub. Açıqlamada Qalvan vadisində baş verən toqquşma yerində tərəflərin geri çəkildiyi də qeyd olunur.

Çin tərəfi toqquşmaya görə Hindistanı ittiham edib. Xarici İşlər Nazirliyinin rəsmisi Cao Licien ənənəvi mətbuat konfransında hind hərbçilərinin sərhəd xəttini iki dəfə keçərək oradakı Çin heyətinə hücum etdiyini, nəticədə tərəflər arasında fiziki qarşıdurma yarandığını açıqlayıb.

Hindistan XİN isə bu bəyanata cavab olaraq bildirib ki, toqquşmaya səbəb Çin hərbçilərinin tərəflər arasında faktiki sərhəd rolunu oynayan nəzarət xətti barədə razılığı pozub və birtərəfli formada status-kvonu dəyişməyə cəhd edib.

**AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu**
***açıq tender elan edir***

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

LOT 1. Elmi-tədqiqat işləri üzrə təcrübə və təcrübə-sınaq işləri
LOT 2. Maye helium-400 litr (4 dəfə 100 litr)

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Az 1025 , Bakı şəh., Xocalı pr.30 ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs: Paşayeva Mehriban İsmayıl qızı
Əlaqə nömrəsi: 012-490-13-29

**İştirak haqqı hər LOT üzrə 100 (bir yüz) manat**
**Bank rekvizitləri:**
**Az 1025 , Bakı şəh., Xocalı pr.30**

**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M\h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə ( əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **24 iyul 2020-ci il saat 14:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **05 avqust 2020-ci il saat 16:00-a** qədər Az1025, Bakı şəh., Xocalı pr.30 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **06 avqust 2020-ci il saat 14:00-da** Bakı şəh., Xocalı pr.30 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Sumqayıt Şəhər İcra Hakimiyyəti
## 2020-ci ildə "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə bütün növ dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə
### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir. Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər bir LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y**
**İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **21 iyul 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **29 iyul 2020-ci il saat 15:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **30 iyul 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu
### *açıq tender elan edir*

- Azərbaycan Respublikası ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun server avadanlıqlarına, fond tərəfindən həyata keçirilən elektron xidmətlərə, informasiya ehtiyatlarına və sistemlərinə dəstəyin göstərilməsi xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 1000 (bir min) manat**

**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq olunmuş);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (17.06.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (17.06.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının ixtisaslı işçi heyəti barədə məlumatlar (CV-lər əlavə olunmaqla);*
- *bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *"Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi fəaliyyəti"nə dair lisenziyanın təsdiq edilmiş surəti;*
- *bənzər layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa və dövlət satınalmalarını hüquqi cəhətdən tənzim edən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.07.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17.07.2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.07.2020-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi
## 2020-ci il üçün Dəftərxana və təsərrüfat mallarının satın alınması üzrə büdcədənkənar vəsait hesabına keçiriləcək elektron tenderdə iştirak etmək üçün
### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN ödəniş" sistemi ilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: - 440 (dörd yüz qırx manat) manat**
**VÖEN: 2701171541**
**Bank: Kapital Bank ASC Mingəçevir filialı**
**Kod: 200297**
**VÖEN: 9900003611**
**M/hesab: AZ37NABZ01350100000000001944**
**Hesab: AZ15AIIB38060019440133314129**
**S.W.I.F.T: AIIBAZ2X**
**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar pr. 12**

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15.07.2020-ci il saat 12:00-a** qədər, tender təklifini və bank təminatını isə **23.07.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **24.07.2020-ci il saat 12:00-da** açılacaqdır.

**QEYD.** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.*

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


# Azercell
## abunəçilərinin nəzərinə!

21.07.2020-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilərə təqdim edilən "My Business 2", "Sizin Tarif", "Sizin Tarif+" tarif paketlərində hesablama intervalı 60 saniyə tətbiq olunacaqdır.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin sifarişi, başqası ilə əvəz etməsi və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


# BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən 2019-cu il üçün illik maliyyə-təsərrüfat fəaliyyətinin auditi xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 10 iyun 2020-ci il tarixli qərarına əsasən, "RSM AZERBAİJAN" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Lerik Rayon İcra Hakimiyyəti 2020-ci ildə Lerik rayon Boykəndil kənd 180 şagird yerlik tam orta məktəb binasının tikinti işlərinin satın alınması ilə əlaqədar
### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir.**

LOT-1. Lerik rayon Boykəndil kənd 180 şagird yerlik tam orta məktəb binasının tikintisi işlərinin satın alınması

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün "ASAN ödəniş" sistemi vasitəsilə aşağıda göstərilən hesaba 400 (dörd yüz) manat iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Təşkilat: Lerik Rayon İcra Hakimiyyəti**
**Lerik YXO**
**H/h: AZ71AIIB32051019447400201174**
**VÖEN: 6300016371**
**"KapitalBank" ASC-nin Lerik filialı**
**Kod: 200747**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S. W.İ.F.T. BİK: AIIBAZ 2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin olub-olmaması barədə arayışlar;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;*
- *iddiaçının nizamnaməsi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *fəaliyyət növü haqqında məlumat;*
- *təklif olunan işlərin yerinə yetirilməsi üçün texniki və maliyyə imkanlarının mövcudluğu barədə məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **09 iyul 2020-ci il saat 12:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **17 iyul 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər. Tender proseduru **20 iyul 2020-ci il saat 12:00-da** dövlət satınalmalarının vahid internet Portalında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Asiman Adil oğlu Tağızadə (telefon: (025) 274 49 51).

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci il üçün
### *kotirovka sorğusu elan edir*

1. Katriclərin dolumu və təmiri, barabanların dəyişdirilməsi.
2. Sürtkü materiallarının satın alınması.

Kotirovka sorğusu üzrə müraciətlər 25.06.2020-ci il saat 13:00-dək qəbul edilir.
Zərflərin açılma tarixi: 25.06.2020-ci il saat 15:00.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon: +994555004599; +994552041520**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

# ALLAH RƏHMƏT ELƏSİN!

"Bakı Metropoliteni" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin Hərəkət xidmətinin rəisi

**ETİBAR CAVANŞİR OĞLU İSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Şahid Abuşova əzizi

**QUBAD ABUŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xəyyam və Məqsudə Nəsibovlar Şaiq və Sevinc Əsgərovlara əzizləri

**FƏRMAN BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəfael Qafarov, Nazim Vəliyev və Qafar Mədətov Şaiq Əsgərova əzizi

**FƏRMAN BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ RƏCƏBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7407
Sifariş 1537
Qiyməti 40 qəpik